Günəş Şərqdən doğur!

№ 184 (5280), 2020-ci il

Qiymәti 40 qәpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 26 dekabr 2020-ci il (şənbə)



## AzTV-də bədbəxt hadisə

Tavan çöküb, xəsarət alan var

"Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin inzibati binasında bədbəxt hadisə baş verib.

(Səh.9)

## Əhalinin 90 faizi peyvənd edilməlidir...

Əks halda müsbət nəticə verməyəcək



**"Sürü toxunulmazlığının əldə edilməsi üçün əhalinin 90 faizinin peyvənd edilməsinə ehtiyac olacaq".**

Bu sözləri ABŞ Allergiya və Yoluxucu Xəstəliklər İnstitutunun direktoru Dr. Anthony Fauci deyib.

(Səh.15)

Günün içindən...



## Füzuli, Zəngilan və Xocavəndin azad olunması...

Bir qrup hərbi qulluqçu medallarla təltif edilib

Prezident İlham Əliyev "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında" Sərəncam imzalayıb.

(Səh.2)

## Gürcüstanın xarici siyasəti üzrə qətnamə qəbul edilib



Türkiyə və Azərbaycanla strateji tərəfdaşlığın möhkəmləndirilməsi prioritet istiqamətlərdən biridir

(Səh.2)

# Mərkəzi icra hakimiyyəti orqanlarında ictimai şuralar yaradılacaq



**Hikmət Hacıyev deyib ki, şurada müstəqil və təcrübəli şəxslərin təmsil olunmasına üstünlük verilməlidir**

Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev mərkəzi icra hakimiyyəti orqanlarında ictimai nəzarətin həyata keçirilməsi, bu sahədə mövcud olan problemlərin aradan qaldırılması, mövcud hüquqi bazanın təkmilləşdirilməsi məsələləri ilə bağlı həmin qurumların rəhbər şəxsləri ilə görüş keçirdi.

(səh.2)

## Paşinyan postundan getməyə hazırdır

O, siyasi qüvvələri növbədənkənar seçkilərlə bağlı məsləhətləşmələrə dəvət edib

(səh.5)



## 2021-ci ilin dövlət büdcəsi birinci oxunuşda qəbul edildi

(səh.4)

## "TƏBİB ləğv edilməlidir"

Deputat deyib ki, Səhiyyə Nazirliyinin səlahiyyəti özünə qaytarılmalıdır

(səh.5)

## Daşqın Nəsirov saxlanıldı

Baş Prokurorluq Zeynəb Xanlarovanın bacısı oğlunun həbsi ilə bağlı məlumat yayıb

(səh.7)

## Yanvarın 18-dən bəzi qadağalar götürülə bilər

Sərt karantin tədbirlərinin əhəmiyyətini etiraf etmək lazımdır

(səh.9)



## Ölənə qədər döyüşdü

Son ana kimi heç kim onun yaralı olduğunu bilməyib

(səh.9)

## 2021-ci ildə bəzi banklar bağlana bilər



Çünki nə kredit verə bilir, nə də verdiyini ala bilir

(səh.8)



## Füzuli, Zəngilan və Xocavəndin azad olunması...

### Bir qrup hərbi qulluqçu medallarla təltif edilib

**Prezident İlham Əliyev "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında" Sərəncam imzalayıb.**

Sərəncama əsasən, Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin bir qrup hərbi qulluqçusu "Füzulinin azad olunmasına görə" medalı ilə təltif ediliblər.

Prezident İlham Əliyev "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Zəngilanın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında" da Sərəncam imzalayıb.

## Parlamentin növbəti iclası dekabrın 28-da keçiləcək



**Milli Məclisin növbəti iclası dekabrın 28-də keçiriləcək.**

APA-nın məlumatına görə, bunu bu gün Milli Məclisin plenar iclasında Spiker Sahibə Qafarova bildirib.

# Mərkəzi icra hakimiyyəti orqanlarında ictimai şuralar yaradılacaq

### Hikmət Hacıyev deyib ki, şurada müstəqil və təcrübəli şəxslərin təmsil olunmasına üstünlük verilməlidir



**Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev mərkəzi icra hakimiyyəti orqanlarında ictimai nəzarətin həyata keçirilməsi, bu sahədə mövcud olan problemlərin aradan qaldırılması, mövcud hüquqi bazanın təkmilləşdirilməsi məsələləri ilə bağlı həmin qurumların rəhbər şəxsləri ilə görüş keçirdi.**

H.Hacıyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkəmizdə dövlət orqanlarının fəaliyyətinə ictimai nəzarətin həyata keçirilməsinin vacibliyini vurğuladığını, müxtəlif sahələrdə mövcud olan problemlərin araşdırılmasında və onların həlli yollarına dair təkliflər hazırlanmasında vətəndaş cəmiyyəti təsisatlarının fəal iştirakı ilə bağlı müvafiq tapşırıq və tövsiyələr verdiyini diqqətə çatdırdı.

Prezident köməkçisi 2013-cü ildə ölkəmizdə ictimai nəzarət mexanizminin hüquqi bazasının yaradıldığını, "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının Qanununun qəbul edildiyini, qanuna əsasən mərkəzi və yerli icra hakimiyyəti, habelə yerli özünüidarəetmə orqanlarının fəaliyyətinə ictimai nəzarəti təşkil etmək üçün həmin qurumların nəzdində vətəndaşların və vətəndaş cəmiyyəti institutlarının seçkili nümayəndələrindən ibarət ictimai şuraların yaradılması mexanizminin təsbit edildiyini vurğuladı. O, sözügedən qanunun qəbul edilməsindən 7 ilə yaxın vaxt keçməsinə baxmayaraq, hələ də onun tətbiqində ciddi problemlərin qaldığını, bir sıra mərkəzi icra hakimiyyəti orqanlarında ictimai şuraların yaradılmadığını, mövcud olan əksər şuraların isə yaradılmasında və fəaliyyətində kifayət qədər nöqsanlara yol verildiyini bildirdi.

Daha sonra mərkəzi icra hakimiyyəti orqanlarının nümayəndələri çıxış edərək ictimai şuraların yaradılması və fəaliyyəti zamanı üzləşdikləri problemləri diqqətə çatdırdılar. Onlar bəzi hallarda ictimai şuralara seçilən qeyri-hökumət təşkilatlarının nümayəndələrinin öz funksiyalarını, hüquq və vəzifələrini bilmədiklərini, habelə aidiyyəti sahə üzrə məlumatsız olduqlarını vurğuladılar.

Görüşdə mərkəzi icra hakimiyyəti orqanlarının ictimai şuraları yaradarkən diqqət yetirməli olduqları əsas məqamlar barədə ətraflı məlumat verildi, onları maraqlandıran suallar cavablandırıldı.

Sonda Hikmət Hacıyev çıxış edərək, qısa müddət ərzində ictimai şuraların yaradılması prosesinə başlanılması, qanunvericiliyin bütün tələblərinə əməl edilməklə şəffaf və obyektiv seçkilərin keçirilməsinin vacibliyini vurğuladı. O, ictimai şuralarda müstəqil və təcrübəli şəxslərin təmsil olunmasına üstünlük verilməsinin, yerli qeyri-hökumət təşkilatları ilə sıx əməkdaşlığın təmin edilməsinin, ictimai şuraların fəaliyyəti ilə bağlı beynəlxalq təcrübənin öyrənilməsinin, müvafiq təlim proqramlarının təşkil edilməsinin, ictimai şuraların iclaslarının mütəmadi keçirilməsinin, şuraların işində şəffaflığın təmin edilməsinin vacibliyini diqqətə çatdırdı.

# Bir xidmətin haqqı 250 manat məbləğində müəyyən edilib

### Xarici ölkələrin universitetlərinin diplomları ilə bağlı qərar verildi

**Nazirlər Kabineti "Xarici dövlətlərin xarici təhsilə aid kvalifikasiyalarının tanınması xidmətləri ilə əlaqədar digər xidmətlərin siyahısı və göstərilən xidmətlərə görə ödəniləcək haqların məbləği"ni təsdiq edib.**




Baş nazir Əli Əsədov bununla bağlı qərar imzalayıb.

Bildirilib ki, "Xarici dövlətlərin xarici təhsilə aid kvalifikasiyalarının tanınması xidmətləri ilə əlaqədar digər xidmətlərin siyahısı və göstərilən xidmətlərə görə ödəniləcək haqların məbləği"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 7 iyul tarixli 1088 nömrəli Fərmanının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədilə qəbul edilmişdir.

Tanınma prosedurunun birinci mərhələsi müraciətlərin qəbulu mərhələsidir və həmin mərhələnin elektron qaydada həyata keçirilməsi nəzərdə tutulur. Bu isə elektron informasiya sisteminin təkmilləşdirilməsi və onun müşayiət olunması xərclərinin maliyyələşdirilməsini tələb edir.

Tanınma prosedurunun ikinci mərhələsi müraciətlərin baxılması mərhələsidir. Tanınmanın növündən asılı olaraq müxtəlif xərclərin (beynəlxalq ekspertlərin cəlb olunması və həmin ekspertlər tərəfindən yerli ekspertlərə təlimlərin keçirilməsi imkanlarının yaradılması məqsədilə əlavə maliyyə ehtiyaclarının ödənilməsi, peşə tanınması zamanı ərizəçinin müvafiq kvalifikasiya üzrə peşə kompetensiyalarının Azərbaycan Respublikasında mövcud olan uyğun kvalifikasiya üzrə nəzərdə tutulmuş peşə kompetensiyalarının tələblərinə minimal səviyyədə uyğunluğunun müəyyən edilməsi məqsədilə sınaq yoxlamalarının təşkili xərclərinin ödənilməsi və s.) qarşılanması tələb olunur.

Digər tərəfdən tanınma ilə bağlı xidmətlərin göstərilməsi Təhsildə Keyfiyyət Təminatı Agentliyi tərəfindən həyata keçirilir. Agentlik publik hüquqi şəxs statusunda fəaliyyət göstərdiyindən onun xərclərinin, əsasən də əməkhaqqı xərclərinin (o cümlədən cəlb edilən ekspertlərin) toplanılan xidmət haqları hesabına maliyyələşdirilməsi qanunvericiliklə nəzərdə tutulmuşdur.

Yuxarıda göstərilən xərc istiqamətləri nəzərə alınmaqla xarici dövlətlərin xarici ali təhsilə aid kvalifikasiyaların tanınması üzrə sənədlərin qəbulu və ekspertizanın keçirilməsi üzrə bir xidmətin haqqı 250 manat məbləğində xarici dövlətlərin xarici təhsilə aid kvalifikasiyalarının tanınması haqqında şəhadətnamənin itirilməsi və ya korlanması ilə əlaqədar yenidən verilməsi üçün xidmətin haqqı 20 manat məbləğində müəyyən edilib.



## Gürcüstanın xarici siyasəti üzrə qətnamə qəbul edilib

### Türkiyə və Azərbaycanla strateji tərəfdaşlığın möhkəmləndirilməsi prioritet istiqamətlərdən biridir

**Gürcüstan parlamentinin plenar iclasında ölkənin xarici siyasəti üzrə qətnamə qəbul olunub.**

"Report"un yerli bürosu xəbər verir ki, növbəti dörd ildə Gürcüstanın xarici siyasətinin əsas prioritetlərinin yer aldığı 14 bənddən ibarət sənədi 81 deputat dəstəkləyib.

Hakim Gürcü Arzusu Partiyasından olan deputatların təmsil olunduğu parlament çoxluğunun təşəbbüsü ilə hazırlanan qətnamədə bildirilib ki, Gürcüstan üçün Türkiyə və Azərbaycanla strateji tərəfdaşlığın möhkəmləndirilməsi prioritet istiqamətlərdən biridir.

Qonşu ölkə həmçinin işğal altındakı ərazilərin azad olunması və məsələnin sülh yolu ilə həlli, NATO-ya inteqrasiyaya strateji hazırlığın təmin olunması, 2024-cü ildə Avropa Birliyinə üzvlük üçün müraciət etməyi və ABŞ-la münasibətlərin dərinləşdirilməsini qarşısına əsas məqsədlər kimi qoyub.

# İlham Əliyevin ordusu...

## Azərbaycan Prezidenti qətiyyətli fəaliyyəti ilə ilin siyasətçisi olub

Rusiyanın nüfuzlu "Vedomosti" nəşri "İlin siyasətçisi" xüsusi layihəsinin nəticələrini elan edib. Azərbaycan Prezidenti İlham Əliyev nəşrin oxucularının seçimi əsasında "İlin siyasətçisi" elan olunub. Nəşr yazıb ki, Azərbaycan Prezidentini haqlı olaraq ordusu 2020-ci ildə inamlı hərbi qələbə qazanan, region miqyasında isə əsl zəfər əldə edən yeganə lider adlandırmaq olar. Qeyd edək ki, "İlin siyasətçisi" siyahısına namizədlər arasında Rusiya, Türkiyə və Belarus prezidentləri də olub.

**Millət vəkili Cavid Osmanov "Şərq"ə bildirib ki, Prezident İlham Əliyevin lider portreti ona kənardan daha çox diqqət cəlb edir.** Deputatın sözlərinə görə, dövlət başçısı İlham Əliyev Qafqazın siyasi lideri olmaqla bölgədə tarazlığın, sabitliyin və inkişafın əsas qarantlarındandır: "Öz fəaliyyəti ilə regionun və dünyanın nüfuzlu liderlərindən birinə çevrilən Prezident İlham Əliyev bu statusu həm daxili, həm xarici siyasəti sayəsində qazanıb. Rəhbərlik etdiyi ölkəni sürətli inkişaf mo-

**Dövlət başçısı həm də Qafqazın siyasi lideri olmaqla bölgədə tarazlığın, sabitliyin və inkişafın əsas qarantlarındandır**



delinə çevirən, demokratik dövlət quruculuğu və sosial-mədəni institutların təqdiralayiq fəaliyyəti ilə dünyada tanıdan, beynəlxalq dialoqlar və yarışlar məkanına çevirən bir liderin dünyadakı böyük nüfuzu təəccüblü görünə bilməz. Azərbaycan Prezidentinin uğurlu siyasətinin beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilməsi faktları çoxdur. Ölkə rəhbərimiz bir neçə dəfə beynəlxalq təşkilatlar tərəfindən "İlin adamı" elan olunub. Ona müxtəlif ölkələrin ali mükafatları təqdim olunub, müxtəlif sorğularda lider seçilib. Prezidentimizin tez-tez dünyanın ən nüfuzlu liderlərindən biri elan olunması təbii ki, onun fəaliyyətinin məntiqi nəticəsidir. Çünki dövlət başçısı XXI əsrdə ölkələrin böyüklüyünün, yaxud kiçikliyinin fərq etmədiyini, dövlətin müstəqil siyasət yeridə bilməsinin əsas olduğunu ortaya qoydu. Azərbaycan lideri bəşəri və milli-mənəvi dəyərlərə sadiqliyini sözdə deyil, əməli işdə dünyaya nümayiş etdirdi. Humanizm prinsiplərinin bəşəriyyətin ən böyük dəyəri olduğunu, dünyada əməkdaşlığın təmin olunmasının vacibliyini ən uca tribunalardan bəyan etdi".

**Parlament üzvü vurğulayıb ki, 44 günlük Vətən müharibəsində qazandığımız möhtəşəm zəfər Ali Baş Komandan İlham Əliyevin sərkərdəlik bacarığını, misilsiz diplomatik fəaliyyətini bir daha dünyaya sübut etdi:** "Dövlət başçısı Azərbaycanın ərazi bütövlüyünü bərpa edən güclü lider kimi Zəfər tarixi yazdı. Müharibə dövründə və ondan sonrakı günlərdə dövlət başçısının həyata keçirdiyi siyasət çoxlarını heyran qoydu. Ölkə rəhbəri güclü xarakteri, uzaqgörənliyi, rasional və milli maraqlara xidmət edən siyasəti ilə əsl lider olduğunu dəfələrlə isbatladı. Məhz Heydər Əliyev dühası və onun varisi İlham Əliyevin idarəetmə bacarığı sayəsində Azərbaycan bütün təhdidlərə rəğmən hazırda dünyanın ən islahatçı, inkişaf edən və real müstəqilliyi olan ölkələrindən biridir. İlham Əliyev təkcə dünənin və bu günün deyil, həm də gələcəyin lideridir".

**İsmayıl Qocayev**

---



# İndi Rusiyanın Türkiyəyə ehtiyacı var

## Soçi görüşündə tərəflər gələcək planları müzakirə edəcəklər

**Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu Rusiyaya işgüzar səfər edəcək. Bu barədə Rusiya Xarici İşlər Nazirliyinin (XİN) rəsmi nümayəndəsi Mariya Zaxarova keçirdiyi brifinqdə bildirib.**

O.M.Çavuşoğlunun səfərinin Rusiya Xarici işlər naziri Sergey Lavrovun dəvəti əsasında dekabrın 29-da baş tutacağını və nazirlərin görüşünün Soçi şəhərində keçiriləcəyini qeyd edib: "Sergey Lavrov və Mövlud Çavuşoğlu Rusiya-Türkiyə Yüksək Səviyyəli Əməkdaşlıq Şurasının Soçidə keçiriləcək iclasında görüşəcəklər. Görüşdə iki ölkə arasında münasibətlərin inkişafı məsələləri müzakirə olunacaq. Bundan başqa, nazirlərin görüşündə Rusiya, Azərbaycan və Ermənistan liderlərinin Dağlıq Qarabağla bağlı birgə bəyanatının həyata keçirilməsi və eləcə də Dağlıq Qarabağda atəşkəsə nəzarət üzrə Rusiya-Türkiyə Birgə Mərkəzinin işi diqqət mərkəzində olacaq".

**Görüş barədə "Şərq"ə danışan BDU-nun müəllimi, beynəlxalq məsələlər üzrə mütəxəssis Sultan Zahidov müzakirə predmetlərini açıqlayıb:** "Ümumiyyətlə, son illər ayrı-ayrı məsələlərlə bağlı belə ikitərəfli görüşlər çox olur. Bu dəfə, şübhəsiz, Qarabağ mövzusu müzakirə olunacaq. Düzdür, müharibə bitib. Amma həll edilməmiş məqamlar, cavabsız suallar da az deyil. Məsələn, birgə monitorinq mərkəzində tərəflərin səlahiyyətləri, qaçqın və məcburi köçkünlərin Qarabağa yerləşməsi və s. belə problemlərdəndir. Yəni görüşdə detallar masaya çıxarılacaq".

**S.Zahidovun fikrincə, tərəflər qarşılıqlı münasibəti kompromis üzərində qururlar:** "Türkiyə və Rusiyanı bir-birinə düşmən hesab edənlərin fikri yanlışdır. Onlar düşmən deyillər. Xüsusilə indi Rusiyanın Türkiyəyə ehtiyacı var. Nəzərə almaq lazımdır ki, Kremlin NATO ilə münasibətləri gərgindir.

Bu qurum daxilində Moskvaya ən yaxşı münasibət göstərən məhz Türkiyədir. Üstəgəl, rəsmi Ankara indi təkcə NATO üzvlərilə yox, bütün ölkələrlə səmimi dialoqlara hazırdır. Moskva bunu görür və yaxşı başa düşür. Eyni zamanda tərəflər arasında iqtisadi əməkdaşlıq, o cümlədən enerji layihələri var. Yəni onlar strateji müttəfiqdir.

Bilirsiniz ki, Türkiyə ABŞ-la münasibətlərin kəskinləşməyinə rəğmən, Rusiyadan S-400-ləri aldı. Putin bunu unuda bilməz. Onun bir həftə əvvəl Türkiyə prezidenti ünvanına dediyi xoş sözlər də fikrimizi sübut edir. Odur ki, tərəflər arasında ciddi problemlərin yaranacağına inanmıram. Türkiyənin nə edəcəyi, necə davranacağı Kreml üçün daha aydındır, nəinki Qərbin.

Moskva hansısa məsələyə, xüsusilə Azərbaycanın haqlı olduğu Qarabağ "düyün"ünə görə Türkiyə ilə münasibətləri heç bir halda korlamaq istəməz. Ankara Moskva üçün əhəmiyyətli partnyordur. Ona görə maraqlarını nəzərə alacaq".

**Kənan Novruzov**

---

# Səsləri çıxdı

## BMT-nin qiymətləndirmə missiyası Qarabağa gəlir

BMT rəhbərliyi kompleks qiymətləndirmə missiyasını Qarabağ münaqişəsi zonasına göndərmək haqqında qərar verib. Bu barədə Rusiya Xarici İşlər Nazirliyinin (XİN) rəsmi nümayəndəsi Mariya Zaxarova keçirdiyi brifinqdə bildirib.



Onun sözlərinə görə, missiyanın tərkibində yerlərdə vəziyyətlə tanış olmaq və köməyə ehtiyacı olanların tələbatlarını qiymətləndirmək üçün profil humanitar agentliklərin nümayəndəri olacaq: "Hazırda məlum qiymətləndirmə missiyasının parametrlərinin hazırlanması və razılaşdırılması davam edir. Biz öz tərəfimizdən hesab edirik ki, bütün zərərçəkənlərə profil beynəlxalq təşkilatların xətti ilə humanitar yardımların göstərilməsi faydalıdır".

M.Zaxarova Rusiya tərəfinin Dağlıq Qarabağla bağlı üçtərəfli bəyanatdan dərhal sonra işə başladığını xatırladıb: "Biz regiona UNESCO-nun müstəqil texniki missiyasının göndərilməsinə hazırıq. Ondan çıxış edirik ki, UNESCO-nun tərəfdaş beynəlxalq qeyri-hökumət təşkilatlarından ibarət humanitar missiyası kollektiv səylərlə Dağlıq Qarabağ regionunun mədəni obyektlərinin vəziyyətinə obyektiv qiymət verə bilər".

**"Niyə 30 il ərzində Azərbaycanın işğal altında olan torpaqlarına gəlmədi, indi 5-10 erməni yadlarına düşüb?**

**Mövzu ilə bağlı "Şərq"ə danışan politoloq Əhəd Məmmədli bildirib ki, nə üçün BMT-nin rəsmi nümayəndələri 30 il ərzində Azərbaycanın işğal altında olan torpaqlarına gəlib, mövcud durumla maraqlanmırdılar? Çoxlu sayda qaçqın və məcburi köçkünlərimiz var idi. Amma BMT nümayəndələri vətəndaşlarımızın hər hansı bir ehtiyacının olub-olmamasına əhəmiyyət verməyiblər:** "İndi isə yadlarına 5-10 min erməni düşüb. Bu, ikili standartlardan xəbər verir. Təbii ki, belə olan halda Azərbaycan tərəfi də ortaya mövqe qoymalıdır ki, həmin nümayəndələr gəlib qaçqın düşərgələri və şəhərciklərdə vətəndaşlarımızla görüşsünlər.

Yoxsa bu, BMT tərəfindən birtərəfli və qərəzli mövqe kimi qiymətləndirilir".

**Yeganə Bayramova**

# “Biz də burada 45 gün Sizin əsgəriniz kimi mübarizə apardıq”

## Londondan Prezidentə məktub yazan soydaşımız qürurlu günlər yaşayır

Xaricdəki soydaşlarımız və Azərbaycan vətəndaşları Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə minnətdarlıq məktubları göndərməkdə davam edirlər. Onlar Vətən müharibəsində qazandığımız tarixi Qələbəni böyük sevinc və qürur hissləri ilə qarşıladıqlarını bildirir, dövlətimizin başçısına təşəkkür edirlər. Həmin məktubların bəzilərini təqdim edirik:



**Türkiyə, İstanbul şəhərindən Saim Kula:** Hörmətli cənab Prezident. Sizləri qazandığımız zəfərlə təbrik edərək Azərbaycan xalqını sevincli görməkdən məmnun olduğumu bildirirəm. Bu günlərdə Sizin yanınızda olmaq hamımız üçün şərəfdir. Sizlərə bu sətirləri yazarkən sevincdən gözümdən yaşlar axır. Qarabağda müharibə başlayandan televiziya ekranlarının qarşısından çəkilmir, zəfərlərinizi izləyirdim. Havaya qalxan dəmir yumruğunuz ermənilərin qorxuya saldığı qədər bizi də qürurlandırırdı. Böyük Öndərimiz Atatürk ”Gələcək göylərdədir, onu qorumayan xalq sabahından əmin olmaz” sözləri ilə türklərə müdafiənin haradan gücləndirilməsi üçün tövsiyələrini vermişdi. Sizlər də bu istiqamətdə böyük işlər görmüş, düşməni göylərdə imtahana çəkərək zəfər qazanmışsınız. Sizin uzaqgörən siyasətiniz, müdrikliyiniz sayəsində göylərdə qazandığınız qələbə davamlı olsun. Bir daha Sizi və qardaş Azərbaycan xalqını təbrik edirəm.

**Türkiyə, Kayseri şəhərindən Mələk Şimşək:** Hörmətli cənab Prezident, Müzəffər Ali Baş Komandan, Sizi qazanılmış zəfər münasibətilə ürəkdən təbrik edirəm. Qarabağla bağlı nisgili Azərbaycan övladına yaraşan şəkildə həll etdiniz və bütün dünya bunu gördü, şahidi oldu. Bundan sonra hər birimizin başı dik olacaq. Sizə uzun ömür, cansağlığı arzu edirəm. Allahdan şəhidlərimizə rəhmət diləyirəm. Allah Sizi Vətənimin üzərindən əksik etməsin. Mən Türkiyədə yaşayan Azərbaycan vətəndaşıyam, 2 oğlum var, ikisi də Bakıda doğulub, yoldaşım Türkiyə vətəndaşıdır. Biz Azərbaycanın qələbəsinə bir yerdə sevindik, bir yerdə qürurlandıq.

**Böyük Britaniya Krallığı, London şəhərindən Zaur Məmmədov:** Möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan! Mən Böyük Britaniyada yaşayan azərbaycanlılar adından, həmçinin şəxsən öz adımdan Sizi və xalqımızı Qarabağdakı qələbəmiz münasibətilə təbrik edir, buna görə Sizə sonsuz təşəkkürümü bildirirəm! Bizim uğurumuz sadəcə hərbi və geosiyasi uğur deyil, həm də xalqımızın qürur hissinin misli görünməmiş dərəcədə yüksəlməsi və azərbaycançılığın zirvəyə qalxmasıdır. Bu Qələbə ilə Siz Azərbaycan tarixinə müzəffər, qalib Azərbaycan rəhbəri kimi düşdünüz. Sizi bu münasibətlə ürəkdən təbrik edirəm. Qarabağda müharibə davam etdiyi vaxt biz də burada 45 gün Sizin əsgəriniz kimi informasiya müharibəsində mübarizə aparırdıq. Fəaliyyətimizə Azərbaycana qarşı olan media məlumatlarına reaksiya, deputatlarla ünsiyyət, Londonun mərkəzində ictimai tədbirlərdə iştirak, ordumuza və şəhid ailələrinə dəstək və digər işlər aid idi. Bir qrup həmyerlilərimizlə birlikdə Qarabağ həqiqətlərini dərc edən ingilisdilli qəzet təsis etdik və geniş oxuyucu auditoriyasını cəlb etməyə müvəffəq olduq. Bu müharibədən sonra Vətənimizə göz dikən düşmənlərə qarşı etibarlı mübarizə aparmaq üçün ölkəmizin daha da güclənməsi hava və su kimi vacibdir. Əminəm ki, Sizin uzaqgörən siyasətinizlə bu yolda çox uğurlara imza atılacaq. Mən də öz tərəfimdən Sizin sədaqətli əsgəriniz kimi müharibədən sonra inkişaf və dirçəliş yolunda öz kömək və səylərimi göstərməyə, həm Azərbaycanda, həm də ölkə xaricində Vətənimiz üçün vacib olan işlərdə Sizə və dövlətimizə xidmət etməyə hazıram.

**Şəki şəhərindən Nərmin Səlimova:** Hörmətli cənab Prezident, son illərdə təhsil sahəsinə xüsusi diqqət ayırdığınız üçün Sizə təşəkkür edirəm. Sizin şəxsi təşəbbüsünüz nəticəsində yaradılan Azərbaycan Respublikasının Gənclər Fondu bunun bariz nümunələrindən biridir. Gənclər Fondu ölkə gənclərinin parlaq gələcəyi üçün bir sıra çoxşaxəli fəaliyyətlər həyata keçirir və bunlardan biri də xaricdə təhsillə bağlı təqaüd proqramıdır. Fondun 2019-cu ildə elan etdiyi təqaüd proqramının qalibi olaraq Fransa Respublikasının Paris şəhərində yerləşən Politexnik Məktəbində (Scole Polytechnique) ”Material Mühəndisliyi” ixtisası üzrə magistratura təhsilimi davam etdirərək bu ilin sentyabrında uğurla başa vurdum. Əminəm ki, gələcəkdə bu tipli təqaüd proqramlarının sayı artacaq və daha çox gəncimiz bu imkandan yararlanacaqdır. Fürsətdən istifadə edib Sizi, eləcə də bütün Azərbaycan xalqını uzun illər düşmən tapdağı altında qalmış torpaqlarımızın qaytarılması münasibətilə təbrik edirəm.

**Ağdam rayonu, Mərzili kəndindən Fərid Muradov:** Hörmətli cənab Prezident, Müzəffər Ali Baş Komandan! Azərbaycan Respublikası Gənclər Fondunun ”Xaricdə Təhsil Proqramı”nın qaliblərindən biri kimi Sizə məktub yazmaqdan qürur hissi keçirirəm. Siz hər zaman vurğulayırsınız ki, gənclər milli ruhda böyüməli və vətənpərvərliyi, milli dəyərləri, ənənələri qorumalıdırlar. Məhz Sizin uzaqgörən siyasətiniz və gənc, vətənpərvər əsgərlərimizin qəhrəmanlığı nəticəsində müqəddəs torpaqlarımız düşmən işğalından azad edilmişdir. Bu uğurları Sizin öndərliyinizlə görməkdən çox xoşbəxtik. Məhz Sizin şəxsi təşəbbüsünüz əsasında yaradılan Gənclər Fondunun mühüm layihələrindən biri olan xaricdə təhsil proqramı sayəsində onlarla azərbaycanlı gənc dünyanın müxtəlif yüksək reytinqli universitetlərində təhsil almaqdadır. Mən də bu proqramdan faydalanaraq Fransanın Qrenobl Alps (”Grenoble Alpes”) universitetində ”Davamlılıq və İnnovasiyalar” ixtisası üzrə magistr təhsilimi tamamladım və bildirmək istəyirəm ki, bu zaman ərzində qazandığım bilik və təcrübələri ölkəmin inkişafı üçün sərf etməyə hazıram.

**Aynurə Pənahqızı**



## 2021-ci ilin dövlət büdcəsi birinci oxunuşda qəbul edildi

**2021-ci ilin dövlət büdcəsi Milli Məclisin bu gün keçirilən plenar iclasında birinci oxunuşda qəbul edilib.**

Milli Məclisə təqdim olunan layihədə 2021-ci il icmal büdcəsinin gəlirləri 23828,1 milyon manat proqnozlaşdırılıb ki, bu da 2020-ci illə müqayisədə 1 465,1 milyon manat və yaxud 6,6 % çoxdur.

İcmal büdcənin xərcləri 31 163,4 milyon manat olacaq ki, bu da 2020-ci illə müqayisədə 855,1 milyon manat və yaxud 2,8 % çoxdur.

2021-ci ilin icmal büdcəsinin kəsiri 7 335,3 milyon manat təşkil etməklə 2020-ci illə müqayisədə 610,1 milyon manat və yaxud 7,7 % azdır. Kəsir proqnozlaşdırılan ÜDM-in 9,7 %-nə bərabər olacaq ki, bu da 2020-ci illə müqayisədə 1,4 faiz-bənd azdır.

# Gec-tez Ermənistanda vəziyyət dəyişəcək

## Acı məğlubiyyət və bacarıqsız rəhbərlik ölkəni xaosa aparır

İkinci Qarabağ müharibəsi düşmən ölkənin iqtisadiyyatına böyük zərbə vurdu. Onsuz da Ermənistan iqtisadiyyatı koronavirus səbəbindən çətinliklər yaşayırdı. Müharibənin başa çatmasına rəğmən, Ermənistanda iqtisadi durum gün keçdikcə ağırlaşır. Eyni zamanda cəmiyyətdə də bir gərginlik var. Ağır iqtisadi durum Paşinyan hakimiyyətinə olan hiddəti daha da alovlandırır. Küçələrdə etiraz aksiyaları davam edir.



Bu günlərdə İrəvanın bələdiyyə sədri də bildirib ki, ölkədə büdcə 49 faizə qədər azalıb. Buna görə də artıq Ermənistanda sosial problemlərin həllinə maliyyənin ayrılmayacağı ehtimal edilir.

**İrəvandakı çətin iqtisadi vəziyyəti ”Şərq”ə şərh edən Bakı Dövlət Universitetinin tarix üzrə fəlsəfə doktoru, geosiyasət və konfliktologiya üzrə dosent Kərəm Məmmədov bildirib ki, Ermənistan cəmiyyəti bizim onlara vurduğumuz ağır zərbəni həzm edə bilmir.**

Dosent qeyd edib ki, düşmən ölkənin daxilindəki ictimai-siyasi və iqtisadi durum müharibə nəticəsində daha da kəskinləşdi: ”Ermənistan müharibədən öncə də iqtisadi böhran içində yaşayırdı. Düşmən ölkə təcavüzkar siyasəti nəticəsində regional layihələrdən kənarda qaldı. Bu isə iqtisadiyyata külli-miqdarda zərər vurdu.

Ermənistanın daxilindəki ictimai-siyasi vəziyyət, korrupsiya əməlləri ölkə iqtisadiyyatını çökdürdü. Bütün bu proseslər bir yerə cəmləşdi və nəhayət, acı nəticələr ortaya çıxdı.

Nəticələrin daha da kəskinləşməsinə İkinci Qarabağ müharibəsi səbəb oldu. Hərbi cəhətdən belə bir mif yaratmışdılar ki, Ermənistanın məğlubedilməz ordusu var. Lakin biz bu ordunun hansı vəziyyətdə olduğunu 44 günlük savaşda gördük”.

**K.Məmmədov vurğulayıb ki, Paşinyan da Koçaryan və Sarkisyan kimi yalnız şəxsi maraqlarını güdür:** ”Təbii ki, bu da ölkə iqtisadiyyatını tamamilə məhv etdi. Paşinyan hakimiyyətə gələndən sonra dağılmış iqtisadi vəziyyətdə olan ölkəni qısa müddətdə dirçəldə bilməzdi. Onun ən böyük səhvi də danışıqlar prosesinə son qoyması oldu.

Danışıqlar prosesi zamanı ”Qarabağ Ermənistandır və nöqtə” sərsəm bəyanatını verdi. Əslində Paşinyan bu açıqlaması ilə danışıqlar prosesinə nöqtə qoydu.

Bütün bunlar Ermənistanda daxili vəziyyətə mənfi təsirlərini göstərdi. Müharibədən sonrakı vəziyyət də göz qabağındadır. Hazırda Ermənistanda formal olaraq hakimiyyət var, amma mahiyyətə baxsaq, hakimiyyətin heç bir sturukturu normal şəkildə işləmir. Erməni hərbçiləri ordumuz tərəfindən məhv edildi, onların meyitlərinə sahib çıxacaq bir struktur yoxdur ki, cəsədləri yığıb aparsınlar.

Qorxurlar ki, çoxlu sayda meyit gəlməsi ölkədəki gərgin vəziyyəti daha da şiddətləndirəcək. Neçə gündür ki, işğalçı Ermənistanda mitinqlər keçirilir. Bütün bunlar gec-tez hakimiyyətin dəyişməsinə gətirib çıxaracaq.

Lakin düşünürəm ki, bu, tez zamanda baş verməyəcək. Ən azından Paşinyan üzərində müəyyən öhdəliklər var. Təxminən 1 il ərzində Ermənistanda xaos davam edəcək”.

**Yeganə Bayramova**



# “TƏBİB ləğv edilməlidir”

## Deputat deyib ki, Səhiyyə Nazirliyinin səlahiyyəti özünə qaytarılmalıdır

Dünən Milli Məclisin payız sessiyasının növbəti plenar iclası keçirilib. İclasda 2021-ci il dövlət büdcəsinin müzakirəsi davam etdirilib. Deputatlar gələn ilin büdcəsindən müxtəlif sahələrə ayrılan vəsaitlə bağlı fikirlərini dilə gətirib, bir sıra təkliflər səsləndiriblər. Millət vəkili Məlahət İbrahimqızı qeyd edib ki, 2021-ci ilin büdcəsi Zəfər büdcəsidir.

Onun sözlərinə görə, qarşıdakı dövrdə əsas prioritet Qarabağın quruculuğu və hərbi xərclərin artırılması olmalıdır: "Sosial xərclərin artırılmasına da diqqət yetirməliyik. Eyni zamanda koronavirus pandemiyasından az qala müflisləşmə səviyyəsinə gələn orta və kiçik sahibkarlığa gələn ilin büdcəsindən daha çox dəstək ayrılmalıdır".

**“Vətən müharibəsindən sonra insanlara yeni gözlə baxılmalıdır”**

**Millət vəkili Sabir Rüstəmxanlı Qarabağın Baş Planının hazırlanmasını təklif edib. Parlament üzvü vurğulayıb ki, 2021-ci ilin büdcəsinə Qarabağ büdcəsi kimi baxılmalıdır:** "Ordu işini görüb. İndi Qarabağın Baş Planı hazırlanmalı, torpaqlar minadan təmizlənməli, məcburi köçkünlər geri dönməlidir. Vətən müharibəsindən sonra insanlara yeni gözlə baxılmalıdır. Yüksək insani münasibətlər, ədalət mühiti hökm sürməlidir. Bu məsələdə məsuliyyət hökumət üzvlərinin üzərinə düşür. Buna görə də şəhid ailələrinə, qazilərə dövlətin qayğısının xırda məmurlar tərəfindən kölgələnməsinə qətiyyən yol vermək olmaz. Sosial dəstəyin ünvanlılığı ilə bağlı çərçivə daha dəqiq hazırlanmalıdır. Yeri gəlmişkən, Neftçalaya su çəkilib, ancaq şəhərdə su paylama və kanalizasiya sistemi yoxdur. Rayonun bir çox kəndləri qazlaşdırılmayıb".

**“Şəhid ailələri və müharibə əlillərinə ayrılan müavinətlər 3 dəfə artırılmalıdır”**

**Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini Qüdrət Həsənquliyev də deyib ki, şəhid ailələrinə, qazilərə daha diqqətlə yanaşmalıyıq, bizə qələbəni qazandıran onlar oldu.** Şəhid ailələri və müharibə əlillərinə ayrılan müavinətlərin məbləği ən azı 3 dəfə artırılmalıdır". Millət vəkili qeyd edib ki, BMT Təhlükəsizlik Şurasının səhlənkarlığı nəticəsində torpaqlarımız işğal olunub, işğal olunmuş ərazilərdə dağıntılar törədilib: "Haitidə BMT sülhməramlıları təhlükəli xəstəliyin yayılmasında günahlandırılaraq məhkəməyə verilmişdi. Biz də BMT Təhlükəsizlik Şurasını səhlənkarlığına görə məhkəməyə verməliyik".

Q.Həsənquliyev əlavə edib ki, biz icbari tibbi sığortaya keçirik, ona görə də səhiyyə müəssisələri özəlləşdirilməlidir: "TƏBİB özünü doğrultmayıb, bu qurum ləğv edilməli, Səhiyyə Nazirliyinin səlahiyyəti özünə qaytarılmalıdır. İri dövlət şirkətlərinin isə 51 faizi dövlətdə saxlanılmaqla, 49 faizi özəlləşdirməyə çıxarılmalıdır".

**“Hər şeyi dövlətdən gözləmək lazım deyil”**

**Millət vəkili Səttar Mehbalıyev deyib ki, büdcədən hərbçilərin kirayə qalması üçün vəsait ayrılıb.** Gələcəkdə hərbçilər üçün müvəqqəti evlər tikilə bilər ki, onlar həmin evlərdə yaşasınlar: "İşğal altındakı rayonların bərpası üçün gələn ilin büdcəsindən 2,2 milyard manat ayrılıb. Hər şeyi dövlətdən gözləmək lazım deyil. Azərbaycanda iri, transmilli şirkətlər fəaliyyət göstərir, onlar da quruculuq prosesinə töhfə verməlidir".

**“Qazi və Veteranlar Federasiyası yaradılmasın”**

**Millət vəkili Azay Quliyev qeyd edib ki, şəhid ailələri və qazilərin sosial təminatı Prezident İlham Əliyevin diqqətindədir, yaxın günlərdə də bu istiqamətdə müvafiq addımların atılması gözlənilir:** "Səfərbərlik üçün hərbi xidmətə çağırılan şəxslərə hər ay birdəfəlik 360 manat verilir. Bu vəsaitin dəfələrlə artırılmasına ehtiyac var. Keçmiş iş yerlərində maaşları saxlanılanlar istisna olmaqla, işləməyən hərbi qulluqçuların müavinətlərinə yenidən baxmalıyıq. Digər tərəfdən, gizirlərə 128 manat ərzaq təminatı ilə bağlı vəsait ödənilməlidir. Nazirlər Kabinetinin son qərarı nəzərə alınmaqla, artımlarla bu vəsait ödənilmir. Bu məsələyə də Maliyyə Nazirliyi aydınlıq gətirməlidir". Millət vəkili Qazi və Veteranlar Federasiyasının yaradılmasını, bu quruma büdcədən vəsait ayrılmasını da təklif edib.

**“Su problemi həll olunsa da, kanalizasiya məsələsi həllini tapmayıb”**

**Parlamentin Səhiyyə komitəsinin sədr müavini Rəşad Mahmudov "Azərsu" ASC-ni tənqid edib.** Deputat bildirib ki, 2008-ci ildə Astara şəhərində su və kanalizasiya layihəsi ilə bağlı tenderin qalibi elan olunub. Ötən dövr ərzində su problemi həll olunsa da, hələ də kanalizasiya məsələsi həllini tapmayıb: "Bu layihənin indiyə qədər tam icra olunmaması seçicilərdə suallar doğurur və bu sualı da dünən seçicilərdən biri parlamentdə səsləndirilməsini xahiş edib. Büdcəmizin imkanlarının ən geniş olduğu bir dövrdə Astara şəhərinin su və kanalizasiya ilə bağlı məsələ niyə kəmkəsirlə yerinə yetirilib? Seçicim məntiqi olaraq sual verir ki, Şuşada bu il su və kanalizasiya işlərinə başlanılsa, müvafiq qurumlar o işləri neçə ilə başa çatdıracaqlar? Xahiş edirəm ki, büdcə müzakirələri zamanı "Azərsu" ASC rəhbərliyi bu sualı cavablandıraydı".

**“Veteranların işlə təmin edilməsi üçün proqram hazırlanmalıdır”**

**Millət vəkili Fəzail Ağamalı qeyd edib ki, Vətən müharibəsi veteranlarının işlə təmin edilməsi üçün proqram hazırlanmalıdır:** "Vətən müharibəsinin çoxminli veteranları olacaq. Bu ağır yükü reallaşdırmaq üçün Əmək və Sosial Müdafiə Nazirliyi xüsusi proqramın hazırlanması təşəbbüsü ilə çıxış etməli və bunun üçün vəsait ayrılmasına nail olmalıdır. Qanunvericiliyə də biz dəyişiklik etməli və həmin Birinci Vətən müharibəsinin çoxminli veteranlarının dövlət və özəl sektorda işə götürülməsinə nail olmalıyıq". Deputat bildirib ki, Birinci Vətən müharibəsində şəhid olanların ailələri və qazilər hələ də evlə, avtomobillə təmin olunurlar: "İkinci Vətən müharibəsində iştirak edənlərin və şəhid ailələrinin bəzilərinin ağır durumda olması barədə KİV-də məlumatlara rast gəlirik. Bu məsələlər də diqqət mərkəzində saxlanılmalıdır".

**Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev bildirib ki, yaxın 4-5 ildə ehtiyac meyarını yaşayış minimumuna çatdıra bilərik:** "Ehtiyac meyarı yaşayış minimumuna çatdıqdan sonra ona ehtiyac olmayacaq, ehtiyac meyarı ləğv ediləcək".

**İsmayıl Qocayev**

# Putin iclasda MDB-dəki vəziyyəti müzakirə edəcək

## “Bu, bizim xarici siyasət istiqamətimizdə işimizin ən vacib sahələrindən biridir”



**Rusiya Prezidenti Vladimir Putin Rusiya Təhlükəsizlik Şurasının (TŞ) üzvlərinə Müstəqil Dövlətlər Birliyi (MDB) ölkələrində vəziyyəti müzakirə etməyi təklif edib. Bu barədə “RİA Novosti” xəbər verir.**

"Gəlin TŞ daimi üzvləri ilə bugünkü görüşümüzdə MDB məkanında vəziyyəti müzakirə edək. Bu, bizim xarici siyasət istiqamətimizdə işimizin ən vacib sahələrindən biri, hətta ən vacibidir", - deyə Putin qeyd edib.

# Paşinyan postundan getməyə hazırdır

## O, siyasi qüvvələri növbədənkənar seçkilərlə bağlı məsləhətləşmələrə dəvət edib



**Ermənistanın baş naziri Nikol Paşinyan ölkənin siyasi qüvvələrini 2021-ci ildə növbədənkənar parlament seçkilərinin keçirilməsi ilə bağlı məsləhətləşmələrə dəvət edib.**

Rusiya KİV-ləri xəbər verir ki, bu barədə o, özünün Facebook səhifəsində qeyd edib.

"Mən parlamenti və qeyri parlament qüvvələri 2021-ci ildə keçiriləcək növbədənkənar parlament seçkilərinin keçirilməsinə dair məsləhətləşmələrə dəvət edirəm. Xalqın qərarı nəticəsində baş nazir postundan getməyə hazıram. Baş nazir postundan yalnız xalqın qərarı ilə ayrılacağam", - Paşinyan yazıb.

# Belarusun ABŞ-dakı səfiri vəfat edib

## 49 yaşlı diplomatın ölüm səbəbi barədə məlumat verilməyib



**Belarusun ABŞ-dakı səfiri Oleq Kravçenko vəfat edib.**

Trend-in məlumatına görə, bu barədə Belarus Xarici İşlər Nazirliyinin mətbuxat xidməti bildirib. 49 yaşlı səfirin ölüm səbəbi barədə məlumat verilməyib.

*O.Kravçenko bu ilin iyulunda ABŞ-a səfir təyin olunsa da, hələ fəaliyyətə başlamamışdı.*

# İkinci Xəzər iqtisadi forumunun tarixi açıqlanıb

**İkinci Xəzər iqtisadi forumu 2021-ci il avqustun 11-12-də Moskvada keçiriləcək.**

Trend bu barədə Rusiyanın İqtisadi İnkişaf Nazirliyinə istinadən məlumat verir.

Forumun gündəliyində "Xəzər beşliyi" ölkələrinin iqtisadi-ticari əməkdaşlığının inkişafı, ekologiya, energetika, nəqliyyat, infrastruktur və humanitar sahələrdə əməkdaşlıq məsələləri yer alacaq.

*Qeyd edək ki, Xəzər iqtisadi forumunun keçirilməsi barədə qərar 2018-ci ilin avqustunda Xəzəryanı ölkə rəhbərlərinin sammitində qəbul olunub. Birinci Xəzər iqtisadi forumu 2019-cu ilin avqustu 11-12-də Türkmənistanda keçirilib.*

# Politoloq millət vəkili ilə razılaşmadı

## "Siyasi baxımdan yetişməmiş insanların partiya üzvü olması yanlışdır"

### Həyat təcrübəsi olmayan gənc bir insan asanlıqla radikal qüvvələrin təsirinə düşə bilər



Millət vəkili Məlahət İbrahimqızı gənclərin siyasi partiyalara üzvlük yaşının aşağı salınmasını təklif edib. Deputat bildirib ki, xarici ölkələrin praktikasına əsaslanaraq, siyasi qurumlara üzvlüklə bağlı müəyyən redaktələr etmək mümkündür:

"Bizdə qanunla 18 yaşına çatana kimi insanların siyasi partiya üzvü olması qadağan edilir. Məncə, gənclərin siyasi partiyalara üzvlük yaşının aşağı salınmasına ehtiyac var. ABŞ-da belə təcrübə mövcuddur. Bilmirəm, bu təcrübə bizdə tətbiq edilə bilərmi?". Parlament üzvü Fəzail İbrahimli də bildirib ki, siyasi partiyaların fəaliyyəti ilə bağlı qanuna yeni dəyişiklik təklif olunanda, bu məsələyə qayıtmaq olar.

**Deputatın təklifini "Şərq"ə dəyərləndirən politoloq Azər Rəşidoğlu isə tamamilə əksini düşünür.** Analitik hesab edir ki, siyasi baxımdan yetişməmiş insanların partiya üzvü olması yanlışdır. Ekspertin sözlərinə görə, həyat təcrübəsi olmayan gənc bir insan asanlıqla radikal qüvvələrin təsirinə düşə bilər: "İnsan müəyyən yetkinlik yaşına çatmalıdır ki, düzgün seçim edə bilsin. Əgər səsvermədə iştirak üçün yaş senzi 18 yaşdan başlayırsa, partiyaya üzvlük məsələsində bu yaş daha yüksək olmalıdır. Düşünürəm ki, 20 yaşdan tez partiya üzvü olmaq qanunla qadağan edilməlidir. İnsan valideyninin, ətrafının təsiri ilə deyil, öz şəxsi təcrübə və dünya görüşünə uyğun olaraq hansısa partiyaya üzv olmalıdır. 15-16 yaşlı yeniyetmələr məsuliyyətli addım atmağa hazır deyillər. Sovet vaxtı bizi zorla "oktyabryat", "pioner" və "komsomol" edirdilər. Bu sistem iflasa uğradı. Düşünürəm ki, yaş senzi aşağı salınmalı deyil, əksinə, yuxarı qaldırılmalıdır".

**İsmayıl Qocayev**

## Ermənistan vətəndaşları itkin düşən daha 540 hərbçisini axtarır



**Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə yerləşdirilən Rusiyanın sülhməramlı kontingentinin yaratdığı "qaynar xətt"ə ümumilikdə itkin düşmüş 540 erməni hərbçi ilə bağlı müraciət daxil olub. "Report" xəbər verir ki, bu barədə Rusiya sülhməramlı kontingentinin mətbuat xidməti bildirib. Qeyd olunub ki, daxil olan məlumatlar yoxlanılıb və sülhməramlı kontingentin axtarış bölmələrinə ötürülüb.**

Qeyd edək ki, Ermənistanın Müdafiə Nazirliyi Qarabağ müharibəsindəki itkilərinin sayını gizlədir. Nazirlik döyüşlərdə həlak olan erməni hərbçilərinin sayını bu günə kimi açıqlamayıb.

Daha əvvəl Ermənistanın "Politik.am" saytı Qarabağ müharibəsində ölənlərin, yaralıların, itkin düşənlərin və əsirlərin sayı barədə bu günə kimi rəsmi məlumat verilmədiyini vurğulayıb. "Vəziyyəti Vatikanın Ermənistandakı keçmiş səfiri Mikael Minasyan aydınlığı ilə izah edib. O, müharibədə azı 4 750 nəfərin həlak olması haqqında bildirib. Hakimiyyət bilir və bu rəqəmi təkzib etməyə çalışır, ancaq sonrakı məlumatlar Minasyanın haqlı olduğunu sübut edib", - sayt vurğulayıb.

# Tahir Kərimli ya iqtisadiyyatı bilmir, ya da vəziyyəti





## Şəhid, qazi ailələrinə mütləq güzəştlər olmalıdır, amma millət vəkilinin dediyi kimi yox

**Milli Məclisin növbəti plenar iclasında gələn ilin büdcə zərfinin müzakirəsi zamanı parlamentin İnsan hüquqları komitəsinin sədr müavini Tahir Kərimli maraqlı təkliflə çıxış edib.**

İqtisadiyyatın neftdən asılılığını tənqid edən T.Kərimli qeyd edib ki, şəhid, qazi ailələrinin qaz, işıq və suyu havayı olmalıdır: "İnsanlar bir balaca otağa yığılır, tez işığı söndürürlər. Şəhid, qazi ailələrinin işıq, qaz, su pulunu icra nümayəndələri, bələdiyyələr hansısa formada ödəməlidir, bunun bir yolu tapılmalıdır".

"Vətən müharibəsindən sonra biz Azərbaycanın şərəfli, qürurlu vətəndaşıyıq. Dünən Mərkəzi Bankın sədri deyir ki, büdcə kəsirindən narahatıq. Biz daha çox narahatıq".- deyə, parlamentari əlavə edib.

**Sabiq deputat, iqtisadçı-ekspert Nazim Bəydəmirli T.Kərimlinin sözügedən təklifini "Şərq"ə dəyərləndirib:** "Əlbəttə, dövlət həmin kateqoriyadan olan ailələrə xüsusi imtiyazlar verib və verir. Nəzərə almaq lazımdır ki, müharibədə iştirak edənlərin ən azı yarısı MAXE idi. Onların imkansız və ailəli olduqları, adətən kənd yerlərində yaşadıqları heç kimə sirr deyil. Əgər ailə başçısı şəhadətə qovuşubsa, şərti mənada iki uşağının olduğunu düşünsək, deməli, üç adam təminatsız qalıb. Yaşayış minimum 750 manatdır. Sosial müavinətin həcmi isə 400 manatdır. Bu, lazımi tələbatları ödəmək üçün kifayət deyil. Deməli, mütləq güzəştlər olmalıdır. Amma deyilən kimi yox".

N.Bəydəmirli, daha optimal variantı göstərib: "Məncə, bu, ağıllı ideya deyil. Çünki biz əvvəlki illərdə oxşar subsidiyalardan sui-istifadə hallarına dəfələrlə rast gəlmişik. Ünvanlılığı təmin etmək naminə daha yaxşı olar ki, həmin kateqoriyadan olanlar üçün əlavə pul vəsaitləri nəzərdə tutulsun. Əks halda şəffaflıq pozula bilər. Ona görə mən bu təklifi PR kampaniyası kimi qiymətləndirirəm. Həmin adam ya iqtisadiyyatı bilmir, ya da real vəziyyəti"."

**Kənan Novruzov**

Milli Məclis komitələrinin birgə iclasında "Siyasi partiyalar haqqında" qanunda dəyişiklik edilməsi barədə" məsələ ikinci oxunuşda müzakirəyə çıxarılıb. Parlament sədrinin müavini Fəzail İbrahimli bildirib ki, qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasında geniş müzakirə olundu, siyasi partiyalar haqqında fikir və mülahizələr irəli sürüldü.



# Siyasi partiyalara normal şərait yaradılır

## Sülhəddin Əkbər atılan addımları müsbət qarşılayıb



> "Nəhayət, Azərbaycanda normal siyasi fəaliyyət üçün imkanlar yaradılacaq"

F.İbrahimli qeyd edib ki, hazırda humanist bir qanun layihəsi bizim müzakirəmizə verilib: "Layihəyə görə, 17-1-ci maddəyə edilən dəyişiklik yeni çağırış Milli Məclisə keçirilmiş seçkilərdə mandat qazanaraq parlamentdə təmsil olunan və yeni qeydiyyatdan keçən partiyaların maliyyə problemlərinin həllinə dəstək verəcək. Yeni qanunda vəsaitin verilmə müddəti müəyyən olunur. Bu qanun dövlət büdcəsindən siyasi partiyalar üçün ayrılmış vəsaitin bölüşdürülməsində tam ədalətli yanaşmanı ortaya qoyur".

Aparılan müzakirələrin yekununda qanun layihəsi ikinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə edilib.

**Dəyişikliyə münasibət bildirən Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər "Şərq"ə açıqlamasında siyasi partiyalara maliyyə dəstəyinin nəzərdə tutulmasını müsbət qiymətləndirib:** "Prezident Aparatında keçirdiyimiz görüşlərdə də söz verildi ki, siyasi partiyalar haqqında olan qanuna, o cümlədən siyasi partiyaların maliyyələşməsi məsələlərinə yenidən baxılacaq.

Bu məsələyə daha geniş kontekstdə baxılmağı və Azərbaycanda daxili siyasi münasibətlərin normallaşması üçün atılan addımı müsbət qiymətləndirirəm. İstərdim ki, bu addımlar kompleks şəkildə, sistemli və ardıcıl olsun.

Əlbəttə, Azərbaycanda siyasi partiyaların fəaliyyəti üçün normal şəraitin yaradılması istiqamətində atılan bütün addımlar yaxşıdır. Ümid edirəm ki, bundan sonra atılan addımlar yalnız maliyyə sahəsində deyil, digər sahələrdə də olacaq.

Nəhayət, Azərbaycanda normal siyasi fəaliyyət üçün imkanlar yaradılacaq".

**Yeganə Bayramova**

# AzTV TRT kanalı ilə ortaq uşaq kanalı yaradır




**AzTV Türkiyənin TRT kanalı ilə birgə uşaq kanalı yaratmağı planlaşdırır. Bunu televiziya sədri Rövşən Məmmədov qurumun 2019-2020-ci illər üzrə hesabatını təqdim edərkən bildirib. Sədr deyib ki, bununla bağlı AzTV-yə TRT tərəfindən müraciət edilib və birgə platforma şəklində uşaq kanalının yaradılması təklif olunub.**

R.Məmmədovun sözlərinə görə, uşaq kanalının yaradılması 5 ayın, 1 ilin işi deyil. Bu kanalın yaradılması üçün bir neçə il lazımdır: ”ARB-Günəş kanalı var. Amma TRT-nin istədiyi budur ki, bunu AzTV ilə reallaşdırsın. Bunun üçün güclü heyət, texniki imkanlar lazımdır. Yeni layihələr işlənməlidir. Milli uşaq televiziyasının yaradılması üçün iş aparılır, amma buna zaman lazımdır”. Sədrin qənaətincə, bu proses azı 3-4 il çəkər: ”Uşaq televiziyası ən çox maliyyə aparan kanaldır. Təkcə uşaq cizgi filminin hazırlanmasının 1 dəqiqəsinin qiyməti təxminən 1000-2000 manat vəsait tələb edir”.

Təşəbbüslə bağlı fikirlərini ”Şərq”lə bölüşən teletənqidçi,

## Qulu Məhərrəmli: “Bu, ilk növbədə milli inkişaf və strateji baxımdan çox önəmlidir”

professor Qulu Məhərrəmli deyib ki, uşaq kanalı ilə bağlı Azərbaycanda son 15-20 ildə dəfələrlə məsələ qaldırılıb, təkliflər edilib. Ancaq professor təəssüflə qeyd edib ki, indiyədək layihələri reallaşdırmaq mümkün olmayıb. Onun sözlərinə görə, reallaşan və bu gün fəaliyyət göstərən yeganə layihə ”ARB-Günəş” kanalıdır: ”Hesab edirəm ki, mövcud imkanlar çərçivəsində Azərbaycanda ən məqbul uşaq kanallarından biri ”ARB-Günəş”dir. Ara-sıra baxıram və sevinirəm ki, bizim də uşaq kanalımız var. Əgər TRT bununla bağlı təşəbbüs göstərirsə, Azərbaycanın ən imkanlı kanalı ilə reallaşdırmağı düşünürsə, bu, ilk növbədə milli inkişaf və strateji baxımdan çox önəmlidir. İstənilən millətin inkişafı üçün uşaqların düzgün tərbiyəsi mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan çox dəyərli təşəbbüs sayıram. Amma necə reallaşdırılacaq? Ortaq uşaq kanalının yaradılması nə dərəcədə mümkündür? Sözün açığı, bununla bağlı müəyyən problemlərin olduğunu düşünürəm”.

**Q.Məhərrəmlinin fikrincə, TRT ilə AzTV arasında peşəkarlıq və status baxımından, eyni zamanda problemə yanaşma məsələsində ciddi fərqlər var:** ”Yaxın müddət ərzində bu ideyanın reallaşmasını mümkünsüz sayıram. Bunun üçün ən azı 3-5 il vaxt tələb olunur. İlk növbədə ortaq məxrəci müəyyənləşdirmək lazımdır. Amma Azərbaycanda uşaq kanalı ilə bağlı bir konsepsiya hazırlamaq mümkündür. Türkiyədə çoxlu sayda uşaq kanalları mövcuddur. Qardaş ölkə uşaq kanalı ilə bağlı çoxillik təcrübəyə malikdir. Bu sahədə TRT də böyük imkanlara sahibdir. Ancaq bizdə uşaq kanalına keçid üçün baza yoxdur. Heç düz-əməlli uşaq verilişləri, bütün uşaqların maraq göstərdiyi seriallar da çəkilmir. Bütün hallarda ideya qiymətlidir və mümkün qədər çalışıb reallaşdırmaq lazımdır”.

**İsmayıl Qocayev**

# Qarabağda da media mühiti yaradılacaq

## Bu, milli təhlükəsizliyimiz üçün son dərəcə vacib amildir

“Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rövşən Məmmədov onlayn keçirdiyi illik mətbuat konfransında rəhbərlik etdiyi kanalın gələcək planlarına toxunub. O, deyib: "İşğaldan azad olunan rayonlarda "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin müxbir postlarının yaradılması istiqamətində iş gedir".



Sədrin sözlərinə görə, bununla bağlı artıq müraciət olunub: "Bu bizim ideoloji hədəfimizdir. İndiki halda qeyri-mümkündür. Hələ ki, biz sadəcə çəkilişlərlə kifayətlənirik. Hazırda həmin ərazilər minalardan təmizlənir". ”Təkcə AzTV deyil, bütün ölkə mediası həmin ərazilərdə müxbir postunun yaradılmasını istəyir. Növbəti ildə biz hərbi jurnalistikanın inkişaf etdirilməsi istiqamətində proqram hazırlamışıq. Həmçinin 2021-ci ildə kadr potensialını gücləndirəcəyik", - deyə R. Məmmədov qeyd edib. **Mətbuat Şurasının sədri Əflatun Amaşov ”Şərq”ə açıqlamasında təşəbbüsün zəruriliyindən danışıb**: ”İşğaldan azad olunmuş rayonlarımızda həyatın bütün sahələrinin, o cümlədən media mühitinin də canlanmasına ciddi ehtiyac var. Bu, milli təhlükəsizliyimiz üçün son dərəcə vacib amildir. 90-cı illərin əvvəlləri yaxşı yadımdadır. Biz Qarabağı həm də ona görə itirdik ki, ərazi ilə etibarlı informasiya bağımız yox idi. Obyektiv və subyektiv səbəblərdən danışmaq münkündür. Amma gələcəyə baxılmalıdır. Keçmişin acı dərslərindən nəticə çıxarmalıyıq. Eyni zamanda gələcəyin şərtlərini təmin etməliyik. Sevindirici haldır ki, Azərbaycan cəmiyyəti hazırda Qarabağ ruhludur. O cümlədən də mediamız. Baxıram, jurnalistlərimiz işğaldan azad olunmuş rayonlarımıza getməyə, reportajlar, məqalələr hazırlamağa həvəslidirlər. Bu, gözəl haldır. Ancaq içimizdəki həvəsə sistemli, düşünülmüş obraz gətirməliyik. Yerli telekanalların işğaldan azad olunmuş bölgələrimizdə müxbir postları qurulmalıdır. Artıq bununla bağlı AzTV rəhbərliyinin konkret təşəbbüsü var. Bunu alqışlayıram”. Ə.Amaşov, həmçinin digər vacib məqamlara da toxunub: ”Eyni zamanda ona da diqqət yetirək ki, işğaldan azad olunmuş rayonlarımızın mətbu nəşrləri də var. Bir çoxu çətin şəraitdə olsa da, məhdud imkanlarla yenə fəaliyyətdədir. Onlardan məlumatlıyıq. Belə nəşrlərin işi gücləndirilməlidir. Bunun üçün dövlət dəstəyi də göstərilə bilər. Bir vacib məqam da var: İndi internet əsridir. Biz elə etməliyik ki, tutalım, Zəngilanla, Füzuli ilə, Şuşayla, Kəlbəcərlə bağlı yaradılan internet informasiya resursu dünya miqyaslı olsun. Şuşa Azərbaycanın mədəniyyət incisidir. Təsəvvür edin ki, orada fəaliyyət göstərən telekanal dünyaya çıxış imkanına malikdir, özü də izlənilir. Bu, informasiya təhlükəsizliyi baxımından son dərəcə mühümdür. Həmçinin digər bölgələrimiz baxımından da eyni sözü söyləmək mümkündür. Bir sözlə, Qarabağın bundan sonrakı informasiya təhlükəsizliyi məsələsinə sistemli yanaşılmalıdır. Elə fəaliyyət göstərilməlidir ki, Azərbaycan bölgəyə tam sahiblənsin. 30 ilə yaxın müddət az deyil. Azərbaycan dövlətinin, eləcə də ictimai sektorun, təşkilatların Qarabağda tam fəaliyyət göstərməsinin təminatı qurucuLuq, abadlıq işləri qədər vacibdir”.

### “Təsəvvür edin ki, Şuşada fəaliyyət göstərəcək telekanal dünyaya çıxış imkanına malikdir, bu, bizim üstünlüyümüz olacaq”

**Kənan Novruzov**

# Daşqın Nəsirov saxlanıldı

## Baş Prokurorluq Zeynəb Xanlarovanın bacısı oğlunun həbsi ilə bağlı məlumat yayıb



**Baş Prokurorluq Zeynəb Xanlarovanın bacısı oğlunun həbsi ilə bağlı məlumat yayıb.**

Baş Prokurorluğun Mətbuat Xidmətindən ”Şərq”ə verilən məlumata görə, Türkan qəsəbəsi sakinləri Xumara Şabanova və Əzizxanım Atayevaya məxsus torpaq sahələrinin saxta sənədlər hazırlanmaqla qanunsuz satılması barədə daxil olmuş müraciətlər əsasında Xəzər rayon prokurorluğu tərəfindən başlanmış cinayət işi üzrə istintaqın davam etdirilməsi Baş Prokurorluğun İstintaq İdarəsinə həvalə edilib.

Həyata keçirilmiş intensiv istintaq tədbirləri ilə Türkan qəsəbəsi sakinləri Daşqın Nəsirov və Çingiz Səfərovun 2019-cu ilin iyul ayında Xəzər rayon İcra Hakimiyyətinin Türkan qəsəbə nümayəndəsi vəzifəsində işləmiş Rahil Babayevi vəzifə saxtakarlığı və vəzifə səlahiyyətlərindən sui-istifadə etməyə təhrik edərək qəsəbə sakinləri Əzizxanım Atayevanın və Xumara Şabanovanın ölmələrinə dair saxta sənədlər hazırlamalarına, daha sonra Daşınmaz Əmlakın Dövlət Reyestr Xidmətinə ünvanlanmış məktublara qeyd olunan şəxslərə məxsus Türkan qəsəbəsi ”Bağlar Məscidi” deyilən ərazidə yerləşən bağ sahəsinin guya Türkan qəsəbəsində Xəzər dənizinin sahilində yerləşməsini əks etdirən yalan məlumatlar daxil etmələrinə, bununla da dövlətə məxsus olan orta bazar qiyməti daha yüksək olan torpaq sahəsini və həmin torpaq sahəsinə dair əmlak hüquqlarını dələduzluq etməklə ələ keçirmələrinə əsaslı şübhələr müəyyən edilib.

Çingiz Səfərov və Daşqın Nəsirov Cinayət Məcəlləsinin 178.3.2 (dələduzluq yolu ilə özgə əmlakını külli miqdarda ələ keçirmə), 320.2 (rəsmi sənədləri, möhürləri, ştampları, blankları saxtalaşdırma, qanunsuz hazırlama və ya istifadə etmə) və başqa maddələri ilə, icra nümayəndəsi işləmiş Rahil Babayev isə Cinayət Məcəlləsinin 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barələrində məhkəmənin müvafiq qərarları ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda iş üzrə təqsirləndirilən şəxslərin dairəsinin tam müəyyənləşdirilməsi istiqamətində kompleks istintaq-əməliyyat tədbirləri davam etdirilir.

*Qeyd edək ki, D.Nəsirov sabiq deputat, Xalq artisti Zeynəb Xanlarovanın bacısı oğludur.*

# Lukaşenko COVID-19-a qarşı peyvənd vurdurmayacaq



**Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko yeni növ koronavirus infeksiyasına qarşı peyvənd olunmayacağını bəyan edib.**

Bu barədə "Report" RİA ”Novosti”yə istinadən xəbər verir.

”Bir insan kimi Səhiyyə nazirinə demişəm. O bizdə böyükdür. Ona demişəm ki, mən peyvənd olmayacam ”, - o bildirib.

*Qeyd edək ki, Lukaşenko koronavirus infeksiyasına hələ iyul ayında yoluxduğunu və simptomsuz keçirdiyini bildirib.*

# Liderlər bir-birini təriflədi...

## Putin Ərdoğanı daha çox ona görə qəbul edir ki, o müstəqil qərarlar verir



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan cümə namazından sonra jurnalistlərin suallarını cavablandırarkən Rusiya ilə münasibətlərə də toxunub. O qeyd edib ki, Türkiyənin hazırda əlaqələrinin ən yüksək səviyyədə olduğu ölkələrdən biri də Rusiyadır: "Ümid edirəm ki, Rusiya ilə siyasi, hərbi, iqtisadi, mədəni əlaqələrimiz bundan sonra da yüksək səviyyədə davam edəcək".**

"Vladimir Putinin mənim haqqımda düşüncələrindən məmnun oldum. Eyni düşüncəni mən də cənab Putin haqqında ifadə edirəm. O da verdiyi sözə əməl edir"- deyə, Türkiyə dövlət başçısı əlavə edib.

Xatırladaq ki, bir müddət əvvəl Rusiya dövlət başçısı ənənəvi illik mətbuat konfransında türkiyəli həmkarının sözünə əməl edən bir adam olduğunu vurğulamışdı.

Qarşılıqlı komplimentlər tərəflər arasındakı "buzların əridiyini" göstərir. Görünür, bu iki lider "mehriban düşmən" olmağa qərar veriblər.

**Politoloq Natiq Miri isə bunu daha çox liderlər səviyyəsindəki münasibətlə əlaqələndirib. O, məsələyə dair fikirlərini "Şərq"lə bölüşüb:** "Türkiyə və Rusiya arasındakı münasibətlərə dövlət maraqları yox, iki liderin bir-birini bəyənməsi nöqteyi-nəzərindən baxmaq lazımdır. Düzdür, dövlət maraqları bir çox məsələlərdə, o cümlədən Suriyada, Liviyada, Orta Asiyada toqquşur. Amma iki liderin münasibətləri potensial toqquşmaların qarşısını alır. Dünyada belə liderlərin çox az olması onları bir-birinə daha da yaxınlaşdırmaqla yanaşı, həm də ortaq məxrəcə gəlmələrinə, biri-birlərini başa düşmələrinə şərait yaradır. Bu iki qətiyyətli liderin hər ikisi dinləmə mədəniyyətinə sahibdir və verdikləri vədə əməl edir. Putinin əksər dünya liderlərini çox dinləməyi sevməməsi aydındır. Amma Ərdoğana sonadək qulaq asır. Çünki ona etibar edir. Putin hətta türkiyəli həmkarının imzası olmadan da, onun sözünə inanar. Ərdoğanın əqidəsi, dürüstlüyü buna imkan verir. Hətta bəlkə, dünya miqyasında da onuntək lider yoxdur. Məncə, Putinin Ərdoğandan öyrənəcəyi çox şey var. Hətta məhz bu yaxınlaşmalar Rusiya liderini bir dövlət başçısı kimi daha da püxtələşdirib. Tərəflər arasında qarşılıqlı etimaddan gələn bir çox proseslər başladılıb. Onlardan ən başlıcası da, heç şübhəsiz, Qarabağ konfliktinin həllidir".

*N.Miri tərəflər arasındakı maraqların geosiyasi məqamlardan da danışdı: "Ərdoğanı xarizmatik edən ən əsas amillərdən biri də onun müstəqil qərar verməsidir.* O, ABŞ-ın sərt təzyiqlərinə rəğmən, şimal qonşumuzdan S-400-ləri aldı. Moskva bunu necə nəzərə almaya bilər? Ümumiyyətlə, Türkiyə dövlət başçısı qərar verərkən nə ABŞ-ın, nə Aİ-nin, nə də NATO-nun maraqlarını düşünür. Ancaq öz milli və dövlət maraqlarını nəzərə alır. Türkiyə NATO-nun ikinci ölkəsi, bölgədə ən böyük güc sahibidir. Rəsmi Ankara olmadan regional və ya qlobal problemin həlli mümkün deyil. Türkiyəni yanında görmək həm Qara dənizdə, həm Aralıq dənizində, həm də Orta Şərqdə Kremlin maraqlarına uyğundur. Qarşılıqlı əməkdaşlıq hər iki tərəfin maraqlarına cavab verir. Elə buna görə də bəzi anlaşılmazlıqları asanlıqla görməzdən gələ bilirlər".

**Kənan Novruzov**



# AzTV Şuşada yayıma başladı

### Artıq televiziyaya baxmaq və 105 FM radiosunu dinləmək mümkündür

**Teleməkanda ilk dəfə olaraq Şuşada yayıma Azərbaycan Televiziyası (AzTV) başlayıb.**

AzTV-nin Sosial media və ictimaiyyətlə əlaqələr şöbəsindən "Şərq" ə verilən məlumata görə, Şuşada Azərbaycan Televiziyasına baxmaq və 105 FM radiosunu dinləmək mümkündür.

"Müharibə bitdikdən bir neçə gün sonra televiziyamızın yayımını bərpa etmək üçün işlərə başladıq. Ötürücü avadanlıqlar quraşdırıldı və həmin günlərdən TV-yə Şuşada baxmaq və radionu dinləmək mümkün oldu. Əsas məqsədimiz işğaldan azad olunmuş bütün torpaqlarımızda tezliklə yayımı bərpa etməkdir", - deyə şöbədən bildirilib.

*Bundan başqa, AzTV-nin Şuşa bürosunun yaradılması da nəzərdə tutulur.*

# İsmayıllıda zəlzələ olub



**Dekabrın 25-də Xınalıq seysmoloji stansiyasından 16 kilometr cənubda - İsmayıllı rayonunda maqnitudası 3.1 olan zəlzələ baş verib.**

Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzindən Trend-ə bildirilib ki, yeraltı təkanlar yerli vaxtla saat 17:14-də qeydə alınıb.

Ocağı 31 kilometr dərinlikdə yerləşən zəlzələ hiss olunmayıb.

# 2021-ci ildə bəzi banklar bağlana bilər

## Çünki nə kredit verə bilir, nə də verdiyini ala bilir

Bu ilin dekabr ayının 1-nə Azərbaycan əhalisinin ölkə banklarındakı əmanətlərinin həcmi 7 908,2 mln. manat təşkil edib. Azərbaycan Mərkəzi Bankının (AMB) verdiyi məlumata görə, ölkə əhalisinin banklardakı əmanətləri son bir ayda 37,9 mln. manat və ya 0,5 faiz artıb. Cari ilin əvvəlinə nisbətən bu göstərici 729,7 mln. manat və ya 8,4 faiz, son bir ildə isə 773 mln. manat və ya 8,9 faiz azalıb.

**Hüquqşünas, bank üzrə ekspert Əkrəm Həsənov "Şərq"ə açıqlamasında bildirib ki, əhalinin banklara əmanət qoymasında heç bir problem yoxdur. Bank üzrə ekspert qeyd edib ki, yəni banklarda güvənlilik tam təmin olunur:** "Əmanətlərin sığortalanması sistemi var. Bu sistem də daim təkmilləşir. Düzdür, 2021-ci il aprelin 5-dən başlayaraq əmanətlərin tam sığortalanma sistemi olmayacaq. Amma hər bir vətəndaşın bankda yüz min manat miqdarında olan əmanətinin sığortası olacaq. Belə izah edim ki, əgər kiminsə hər hansısa bankda pulu çoxdursa və ya yenə pul yerləşdirmək istəyirsə, bu zaman onu ailə üzvləri arasında bölə bilər. Yaxud da ki, müxtəlif banklara qoya bilər. Yəni hərəsinə yüz min manat. Bu baxımdan əmanətçilər üçün problem görmürəm. Onlar tam güvənli olaraq əmanət yerləşdirə bilərlər. Bunu da dövlət ona görə edir ki, insanlar banklardakı əmanətlərini geri götürməsinlər. Amma əmanətin artmasını gözləmir. Ona görə ki, insanların gəlirləri düşür və onlar artıq pul yığa bilmirlər. Bəzi hallarda yığdıqlarını xərcləməyə məcbur olurlar. Bu dəqiqə nəinki Azərbaycanda, bütün dünyada vəziyyət belədir. Dünyada insanların gəlirləri düşdüyü üçün yığma azalır. Böyük ehtimalla gələn il də əmanətlər banklarda azalacaq. Dediyim kimi, ona görə yox ki, qorxacaqlar. İndi ola bilər ki, kimsə bəlkə də qorxacaq. Amma bütövlükdə insanlara pul lazımdır, bir qismi pullarını çıxaracaq".



Gələn ilin kredit məsələsinə gəlincə, iqtisadçı-ekspert vurğulayıb ki, bankların kredit verməsi həm bank sisteminin, həm də bütövlükdə iqtisadiyyatın vəziyyətindən asılıdır: "Burada gələn il daha çox problemlərin olacağını düşünürəm. Birincisi, bu il pandemiya və karantin səbəbindən bankların problemli kreditləri bu il artıb. Həm əhali, həm də sahibkarlar vaxtlı-vaxtında kreditlərini tam ödəyə bilmir. Gələn il də bu prosesin davam edəcəyi şübhəsizdir. Banklar pullarını vaxtlı-vaxtında ala bilmirlər. Halbuki, banklar gərək pullarını ala bilsinlər ki, əmanətləri geri qaytarsınlar. Digər tərəfdən banklarda kredit vermə də azalıb. Bunun da bir çox səbəbləri var. Həm kredit verməyə qorxurlar, çünki bilirlər ki, bu dəqiqə qaytarmaq məsələsində ciddi problem ola bilər. Həm əhalinin, həm də sahibkarların ödəniş qabiliyyətində ciddi problem var. Digər tərəfdən də bankların kredit verməyə o qədər də vəsaiti də yoxdur. Çünki dediyim kimi, əmanətlər bu il 2020-ci ildə təxmini 1 milyard azalıb. Gələn il də yəqin azalacaq. Banklarda Mərkəzi Bankdan da kifayət qədər kredit götürə bilmirlər. Mərkəzi Bank devalvasiyadan o qədər qorxur ki, devalvasiya getməmək üçün pul bazasını azaldır. Yəni ki, dövriyyədəki pulu azaldır. Bilməyənlər üçün deyim ki, hamı bilsin. Ümumiyyətlə, pul dövriyyədə necə artır? Mərkəzi Bank banklara kredit verir. Yəni ki, bu yolla dövriyyədə pul olur. Mərkəzi Bank da əksinə, pulu azaldır ki, bu pulla gedib heç kəs dollar almasın. Buna görə də pul bazası azalmadığı üçün kredit də azalır. Nəinki əhali, sahibkarlar da kredit götürmək istəyirsə, götürə bilmir. Hazırda banklar həm kredit verə bilmir, həm də verdiyi kreditlərin də çox hissəsini qaytara bilmədiyi üçün 2021-ci ildə bank sistemləri üçün ciddi problemlər olacaq. Bəlkə də hansısa banklar bağlanacaq".

**Aynurə Pənahqızı**




# Ölənə qədər döyüşdü

## Son ana kimi heç kim onun yaralı olduğunu bilməyib

**Məlum olduğu kimi, Prezident, Ali Baş Komandan İlham Əliyev növbəti ad gününü Qubadlıda, əsgərlərlə birlikdə keçirdi. Əlbəttə, bu, rütbəsindən, vəzifəsindən asılı olmayaraq, bütün hərbi qulluqçular üçün sevindirici və fərəhləndirici xəbər idi. Eyni zamanda 44 günlük Vətən müharibəsi şəhidlərinin, o cümlədən Səbuhi Səmədovun da ruhu şad olmuşdu.**

Səbuhi 1985-ci il iyun ayının 23-də Neftçala rayonunun Xıllı qəsəbəsində anadan olub. 1991-ci ildə Rafiq Gözəlov adına 1 saylı orta məktəbə daxil olub. 2003-cü ildə həmin məktəbi bitirib və hərbi xidmətə yollanıb. Ağdamın Əhmədağalılar kəndində, N saylı hərbi hissədə xidmət edib. 2005-ci ildə ordu sıralarından tərxis olunub. 2008-ci ildə ailə qurub. Bir oğlu var.

**Qəhrəmanımız barədə daha ətraflı isə "Şərq"ə onun atası İbrahim Səmədov danışıb:** "Oğlum 2009-cu ildə gizir hazırlıq kursuna daxil olub. Ardınca N saylı hərbi hissədə tank bölüyünün komandiri kimi xidmətə başlayıb. O, 2016-cı ilin aprel döyüşlərində də iştirak etmişdi. Bu barədə əvvəlcədən heç birimizə deməmişdi, sonradan öyrənmişdik. 2016-cı ilin sonlarından Bakı şəhəri Müşviqabad qəsəbəsində N saylı hərbi hissədə fəaliyyətini davam etdirdi. Xidməti boyu 20-dən artıq fəxri fərmanla mükafatlandırılıb. Həmçinin Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 və 100 illiyi yubiley münasibətilə müvafiq medallarla təltif olunub. Hərbidəki fəaliyyətinin 10-cu ilində isə yaxşı xidmətinə görə fəaliyyəti yüksək qiymətləndirilib.

2020-ci il sentyabr ayının 26-da müharibəyə göndərildi. Sonuncu dəfə oktyabrın 7-də danışmışdıq. Dedi ki, məndən narahat olmayın, hər şey yaxşıdır.

Hər kəsə salam göndərdi. Günortaya yaxın isə zəng çatmırdı. Döyüş yoldaşlarının dediyinə görə, o vaxt Səbuhinin tankı vurulmuş, mexaniki şəhid olmuşdu. Səbuhi yaralansa da, döyüşü davam etdirir. Növbəti gün, yəni oktyabrın 8-də başqa tankla müharibədə iştirak edir".

**Atasının dediyinə görə, oğlu son nəfəsinədək mübarizə aparır:** "O, Cəbrayıl rayonunda düşmənin bir tankını və onlarca canlı qüvvəsini məhv edir. Deyilənə görə, ermənilər həmin istiqaməti minamyotla intensiv atəşə tuturdu.

Səbuhi isə deyirmiş ki, öldü var, döndü yoxdur! Hətta ritorik sual verirdi: "Ermənilər kimdir, onlardan qorxaq?!". Beləliklə, yoldaşlarında ruh yüksəkliyi yaradırdı. Komandirinin söylədiyinə görə, Səbuhinin tankında qəfil nəsə nasazlıq yaranır. Ona görə avtomatla açıq döyüşə girir və təkbaşına irəli gedir.

### Qəhrəman tankçı döyüş yoldaşlarının qolları arasında keçinib

Digərləri ondan çox arxada olub. Növbəti minamyot mərmisi Səbuhinin düz yanına düşür. Oğlum yerə yıxılır. Yoldaşları yanına çatanda nəfəsinin gəlmədiyini görüb, süni nəfəs verirlər.

Özünə gələndən sonra tankla geri qayıdırlar. Fəqət Səbuhi çox mübarizə apara bilmir. Döyüş yoldaşlarının qolları arasında keçinir.

Hərbi hissə rəhbərliyinin sözlərinə görə, oğlum əməliyyatlarda çox böyük şücaət göstərib və son anadək heç kim onun yaralı olduğunu bilməyib".

**Kənan Novruzov**

# Yanvarın 18-dən bəzi qadağalar götürülə bilər

## Sərt karantin tədbirlərinin əhəmiyyətini etiraf etmək lazımdır

**"Yoluxma sayının həddindən artıq azalması rəsmi məlumatlardır. Bu rəqəmlər reallığı əks etdirmir".**

Bunu qaynarinfo-ya açıqlamasında professor Adil Qeybulla deyib. Onun sözlərinə görə, bu gün COVİD-19-a yoluxanların sayı deyilənlərdən çoxdur:

"Çünki çox adam daha aidiyyatı qurumlara müraciət eləmir. Bu gün vəziyyət belədir ki, Abşeron yarmadasında əhalinin böyük əksəriyyəti xəstələnib.

Koronavirusun toxunmadığı ailə yoxdur. Bu, gözlənilən idi".

**Adil Qeybulla bildirib ki, sərt karantin tədbirlərinin də əhəmiyyətini etiraf etmək lazımdır:**

"Ünsiyyət azalıb. Düşünürəm ki, yanvarın 18-dən sonra bəzi qadağalar götürülə bilər. Bu gün qadağalar təkcə bizdə deyil, bir çox ölkələrdə var".

# AzTV-də bədbəxt hadisə

## Tavan çöküb, xəsarət alan var



**"Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin inzibati binasında bədbəxt hadisə baş verib.**

Bu barədə AzTV-nin feysbuk hesabında məlumat paylaşılıb.

Bildirilib ki, dünən axşam saatlarında QSC-nin ərazisində olan üçmərtəbəli binada otaqlardan birinin bir hissəsində tavan çöküb, nəticədə bir əməkdaş xəsarət alıb.

Hadisə yerinə Fövqəladə Hallar Nazirliyinin xilasedicilər cəlb olunub. Dağıntılar altında qalan əməkdaşın çıxarılması istiqamətində iş aparılır.

# Yorulan deyilik...

## Bundan sonra da erməni yalanlarını ifşa edəcəyik

*İki gün öncə Prezident İlham Əliyev Qubadlı və Zəngilana səfəri zamanı hərbçilərimizlə görüşüb. Ali Baş Komandan bəzi ölkələr tərəfindən Azərbaycana qarşı qəbul edilən qərəzli qətnamələr barədə mühüm məqamlara toxunub. Fransanın Qarabağ münaqişəsi zamanı Ermənistana dəstəyi və Azərbaycanın əleyhinə qətnamələr qəbul etdiyi hər kəsə bəllidir.*

Bu günlərdə isə Belçika və Niderland Parlamentində ölkəmizə qarşı qərəzli qətnamələr qəbul edilib. Prezident hərbçilərlə söhbətində bildirib ki, Zəngilanın çox zəngin təbiəti, nadir meşələri var: "Baxın, neyləyib düşmən. Baxsın bütün dünya, ermənipərəst qüvvələr bu günə qədər kimi müdafiə edirlər? Bizə qarşı qətnamələr qəbul edən ölkələr baxsınlar, gözlərini açsınlar. Riyakar siyasətçilər, açın gözlərinizi, baxın. Sizin parlamentləriniz qətnamələr qəbul edib. Bizim üçün o qətnamələrin heç bir əhəmiyyəti yoxdur, bir kağız parçasıdır. Amma iş ondadır ki, bizə qarşı yenə əsassız ittihamlar irəli sürülür.

Fransa parlamentinin deputatları, Belçika, Hollandiya parlamentlərinin deputatları, baxın, sizin sevimli ermənilər nələr ediblər bu torpaqlarda? Açın xəritəyə baxın, ensiklopediyaya baxın, görün Zəngilan rayonu, Qubadlı rayonu hansı ölkənin tərkib hissəsidir. Qətnamələr qəbul edirsiniz. Başınıza dəysin bu qətnamələr. Azərbaycanı ittiham edirlər".

**Prezidentin çıxışına dair fikirlərini "Şərq"lə bölüşən millət vəkili Məlahət İbrahimqızı bildirib ki, artıq ərazi bütövlüyümüzü bərpa etmişik.** Rəşadətli Ordumuz düşməni torpaqlarımızdan qovdu və bütün dünyaya xalqımızın qəhrəman olduğunu sübut etdik. Xanım parlamentari təəssüflə vurğulayıb ki, dünyanın taleyini bir sıra supergüclər öz maraqlarına uyğun həll etməyə çalışırlar: "Bəzi təşkilatlar həmin supergüc dövlətlərə arxalanırlar. O təşkilatlardan biri faşist ideologiyasına xidmət edən erməni lobbisidir. Erməni işğalçıları haqqında danışanda iki qüvvənin olduğunu xüsusilə diqqətə çatdırmalıyıq: erməni diasporu və tarixən Azərbaycan torpaqlarını ələ keçirmiş qondarma Ermənistan dövləti. Bəzi beynəlxalq təşkilatlar daim Azərbaycan və Türkiyəyə qarşı düşmən mövqe sərgiləyiblər. Lakin torpaqlarımızı azad etdik. Artıq Dağlıq Qarabağ münaqişəsi tarixə qovuşdu. Ermənistanı elə bir məğlubiyyətə uğratmışıq ki, inanmıram 100 il sonra da özlərinə gələ bilsinlər".



> **"Düşməni elə bir məğlubiyyətə uğratmışıq ki, inanmıram 100 il sonra da özlərinə gələ bilsinlər"**

M.İbrahimqızı qeyd edib ki, yaxın zamanda erməni xalqını böyük fəlakət gözləyir: "Rusiya olmasa, Ermənistan çoxdan məhv olub gedərdi. Ermənilər bir çox xarici ölkələrdə qondarma "erməni soyqırımı" barədə qətnaməni qəbul etdirdilər. Məsələn, bu yaxınlarda Belçika və Niderland Parlamentində qərəzli və birtərəfli qətnamə qəbul edildi. Lakin belə hadisələrdən qorxmamalıyıq. Müharibədə qəhrəman əsgərlərimiz, qazi və şəhidlərimizin qanı ilə zəfər tariximizi yazdıq.

Cənab Prezident də dəfələrlə deyib ki, qələbədən sonra mübarizəmiz siyasi müstəvidə davam edirəcəyik. Çünki dünyadakı erməni lobbi və təşkilatları öz məkrli siyasətlərindən əl çəkməyəcəklər. Lakin nə qədər ki, belə davam edəcəklər, öz xalqlarını fəlakətə daha da sürətlə aparacaqlar".

**Millət vəkili bildirib ki, hansısa ölkədə Azərbaycana qarşı qətmanə qəbul olunursa, ruhdan düşməməliyik:** "Sona qədər mübarizəmizi davam etdirməliyik. Bundan sonra çalışacağıq ki, Azərbaycana qarşı qəbul edilən qərəzli və əsassız qətnamələri zərərsizləşdirək. Bütün dünyaya sübut edək ki, faşist düşüncəli erməni ideoloqları öz xalqlarını uçuruma aparmaqla bərabər, dövləti yanlış yönləndirirlər.

Bu dəqiqə dünya erməni yalanlarının labirintindədir. Belçika, Niderland, Amerika və Fransa kimi ölkələr 200 ilə yaxındır ki, erməni yalanlarını dünyaya sırıyır, bəşəriyyətin beynini zəhərləyirlər.

Lakin yorulan deyilik. Necə ki, ermənilər 200 il ərzində utanıb, usanmadılar, biz niyə yorulmalıyıq ki? Bundan sonra daha əzmkar və prinsipiallıqla erməni yalanlarını ifşa etməliyik".

**Yeganə Bayramova**

# Beynəlxalq məhkəməyə üz tutmağımız böyük dividenddir



## Ən azı informasiya savaşında əlavə bir tribuna əldə etmiş olacağıq

Milli Məclisin İnsan Hüquqları Komitəsinin müraciəti Haaqada yerləşən Beynəlxalq Cinayət Məhkəməsi Prokurorluq İdarəsi tərəfindən cavablandırılıb. Milli Məclisin İnsan Hüquqları Komitəsi, Dağlıq Qarabağ və ətraf rayonlarda Ermənistan ordusu tərəfindən başlanmış hərbi təxribatlara qarşı, genişmiqyaslı hərbi əməliyyatlarla başlanılan 27 sentyabr tarixindən, dünya ölkələrinin parlamentlərinə, beynəlxalq təşkilatlara və beynəlxalq qeyri-hökumət təşkilatlarına Ermənistanın müharibə cinayətləri haqda operativ məlumatlandırmaq məqsədi ilə dəfələrlə müraciət və bəyanatlar ünvanlayıb.

Bəyanatlarda Ermənistanın müharibə və insanlıq əleyhinə cinayətləri, Gəncə və Bərdədə mülki əhalinin ballistik raket hücumlarına məruz qalması, mülki vətəndaşların həlak olması, çoxsaylı dinc əhalinin yaralanması, minlərlə evin dağıdılması və əmlaka ziyan vurulması, Ermənistan tərəfindən əsir götürülən azərbaycanlı əsgərlərlə qeyri-insani işgəncə faktları və s. haqda aidiyyəti beynəlxalq təşkilatlara təfərrüatlı, fakt və rəqəmlərə əsaslanan məlumatlar təqdim edilib. Həmin təşkilatlar sırasında - Beynəlxalq Cinayət Məhkəməsi, BMT-nin İnsan Haqları Komitəsi, Avropa İnsan Hüquqları Məhkəməsinə, Avropa Şurası İnsan Hüquqları Komitəsinə, Beynəlxalq Qırmızı Xaç Komitəsinə və s. beynəlxalq insan hüquqları təşkilatları yer alıb. Müraciətdə Ermənistanın müharibə cinayətlərinin Cenevrə Konvensiyası və beynəlxalq humanitar hüququn kobudcasına pozulması faktlarla əsaslandırılıb. Hərbi cinayətlərin beynəlxalq hüquqi əsasda ən ciddi şəkildə araşdırılması yönündə müvafiq beynəlxalq qurumların bütün səylərini ortaya qoyması tələb edilib. Müraciətdə həmçinin, Komitə tərəfindən Azərbaycanda müvafiq strukturların, hüquq-mühafizə orqanlarının Ermənistanın hərbi cinayətləri ilə bağlı əldə etdiyi faktlar, sənədlər və sübutların Beynəlxalq Cinayət Məhkəməsinə təqdim ediləcəyi də ifadə edilib.

Bu günlərdə, Mənzil Qərargahı Haaqada yerləşən Beynəlxalq Cinayət Məhkəməsi (BCM) Prokurorluq İdarəsinin "Məlumat və Sübutlar Şöbəsinin" müdiri Mark Dilon tərəfindən, Milli Məclisin İnsan Hüquqları Komitəsinin sədri Zahid Oruca cavab məktubu gəlib. Məktubda cənab Mark Dilon İnsan Hüquqları Komitəsindən daxil olan sənədin alınmasını təsdiq edərək, onun baxılmaq üçün BCM Prokurorluq İdarəsinin Kommunkasiya Reyestrinə daxil edilməsini bildirir. Sənədə, Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutunun (Əsasnaməsinin) müddəalarına uyğun olaraq, müvafiq qaydada baxılacağı ilə bağlı açıqlama verilir. Sənədə baxılıb müvafiq qərar çıxarıldığı zaman, yazılı olaraq qərarla bağlı İnsan Hüquqları Komitəsinin sədrinin məlumatlandırılacağı da qeyd edilir.

**Mövzuya münasibət bildirən siyasi-şərhçi Azər Həsrət "Şərq"ə açıqlamasında bildirib ki, Haaqa məhkəməsinin Azərbaycanın Ermənistandan etdiyi şikayəti qəbul etməsi istənilən halda əlbəttə ki, müsbət irəliləyişdir.** Ekspert əlavə edib ki, Azərbaycan uzun illər ərzində Ermənistanın təcavüzündən çox ciddi əziyyət çəkib. Yəni həm dövlət olaraq, həm də xalqımız, ayrı-ayrı fərdlərimiz, vətəndaşlarımız da. Problemlərimizin dünyaya çatdırılmasında, burada baş verənlərlə bağlı dünyanı məlumatlandırmasında, eləcə də ədalətin bərqərar olması və bərpa edilnməsi üçün atılan addımlar əlbəttə ki, mütləq şəkildə faydamızadır. Birincisi,ona görə ki, informasiya savaşında əlavə bir tribuna əldə etmiş olacağıq. Yəni məhkəməyə müraciət etməyin özündən başlamış sonrakı proseslər də diqqət mərkəzində olacaq. İkinci tərəfdən, biz məhkəmə yoluyla dünyaya yenə də başımıza gələnləri izah edəcəyik və çatdıracağıq. Üçüncüsü, məhkəməni qazanacağımız təqdirdə Ermənistana qarşı əlavə iddialar da irəli sürmək imkanımız olacaq. Ona görə də, düşünürəm ki, bu cür addımları müntəzəm şəkildə həyata keçirmək lazımdır. Və əlbəttə ki, bunlar təqdirolunası hərəkətlənmədir".

**Aynurə Pənahqızı**



# Daha 256 nəfər dünyasını dəyişib

## Türkiyədə koronavirusdan 35 511 nəfər sağalıb

**Türkiyədə son 24 saat ərzində yeni növ koronavirusdan (COVİD-19) daha 256 nəfər dünyasını dəyişib.**

Bu barədə Türkiyənin səhiyyə naziri Fahrettin Koca bildirib. Nazir bildirib ki, koronavirusdan ölənlərin ümumi sayı 19 371 nəfərə çatıb. Onun sözlərinə görə, ölkədə 17 543 yeni yoluxma halı qeydə alınıb, yoluxanların ümumi sayı 2 118 255 nəfərə çatıb. Nazir bildirib ki, ötən gün koronavirusdan 35 511 nəfər sağalıb, koronavirusdan sağalanların ümumi sayı 1 970 803 nəfər təşkil edir.

# "Facebook" üzərindən çağırışlar edilir

## Ermənistanda II Qareginin əleyhinə aksiya keçirilməsi planlaşdırılır



**Dekabrın 27-də Ermənistanda Erməni Qriqoryan Kilsəsinin rəhbəri II Qareginə qarşı aksiyanın keçirilməsi planlaşdırılır.**

APA-nın "SputnukArmenia"ya istinadən verdiyi xəbərə görə, bu barədə "Facebook" üzərindən çağırışlar edilir. Aksiyanın II Qareginin Eçmiədzindəki iqamətgahının qarşısında keçirilməsi nəzərdə tutulur. Ermənistan Baş Prokurorluğu iştirakçıları aksiya zamanı təhqiramiz ifadələrdən istifadə etməməyə, dindarların heysiyyətini təhqir edəcək addımlardan çəkinməyə çağırıb.

*Qeyd edək ki, II Qaregin Ermənistanın baş naziri Nikol Paşinyanın istefasını tələb etmişdi.*

# Ermənilər qonşuluq münasibətlərindən çox uzaqdırlar

## Gərək onlar özlərini kənardan izləyib islah olunsunlar



Məlum olduğu kimi, Prezident, Ali Baş Komandan İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva Zəngilan və Qubadlıya səfər ediblər. Dövlət başçısı növbəti ad gününü əsgərlərlə birlikdə qeyd edib. O, nitqində bir sıra mühüm məqamlara toxunub. Həmçinin Ermənistan hərbi-siyasi hakimiyyətinə xəbərdarlıq edən Prezident deyib:

"Mən azad edilmiş bu bölgələrdə olarkən, ermənilər tərəfindən törədilmiş vəhşiliyi görərkən bir daha əmin oluram ki, biz nəinki özümüz üçün, bölgəmiz üçün böyük iş görmüşük. Biz erməni faşizminin başını əzdik. Bizim torpaqlarımızı erməni faşizmi bu günə saldı. Biz Ermənistan faşist dövlətinin, terror dövlətinin belini qırdıq və bu gün məcbur olub, bizim qabağımızda diz çöküb və düzgün nəticə çıxarmalıdır. Ermənistan cəmiyyəti düzgün nəticə çıxarmalıdır. Revanş hissi ilə yaşayacaqlarsa, onların axırı pis olacaq. Əgər o tərəfdən buraya bir güllə atılsa, - 5 kilometrdir buradan Ermənistan sərhədinə, - onları elə günə salarıq ki, ümumiyyətlə, öz adlarını unudarlar".

Bu ismarıc əslində çox mühüm səciyyə daşıyır.

**Politoloq Tofiq Abbasov "Şərq"ə açıqlamasında sözügedən fikirlərin siyasi əhəmiyyətini belə şərh edib:** "Ermənilər özlərini qədim xalq kimi göstərmək üçün yalan, iftira və əfsanələrdən istifadə edirlər. İnsan idrakının öyrənilməsi ilə məşğul olan alimlər bəşəriyyətin inkişafında cəmi 8-10 xalqın, o cümlədən yunanların, misirlilərin, babillərin və başqalarının rol oynadığını deyirlər. Amma ermənilərin adı yoxdur.



Çünki nəyəsə nail olmaqdan ötrü quruculuqla məşğul olmaq lazımdır.

Bu isə düşmənə çox yaddır. Onlar ancaq dağıdıcılıqla məşğuldur. Psixiatrların fikrincə, belə bir hal isə naqislik, anormallıq göstəricisidir. Ermənilər çox məntiqsiz bir yolu seçiblər. Nə qədər ki, bu yollarından dönməyiblər, aqibətləri yaxşı olmayacaq.

Ona görə də, necə deyərlər, papaqlarını qarşılarına qoyub düşünməlidirlər. Heç olmasa, ali zümrənin nümayəndələri onlara başa salmalıdır ki, belə olmaz. Gərək özlərini kənardan izləsinlər və islah olunsunlar. Prezident nitqində məhz bunları nəzərdə tuturdu".

**T.Abbasovun fikrincə, hazırda nümayiş etdirdikləri məntiqsiz siyasət onlar üçün ənənəyə çevrilib:** "Ermənilərin sakitləşəcəyinə inanmıram. Əks halda indiyədək olanlardan çoxdan dərs çıxarardılar. Dağıdıcılıq onlar üçün ənənəyə, siyasi dəst-xəttə çevrilib. Yüz ildən artıq müddətdir ki, qonşuluq münasibətindən çox uzaqdırlar. Yaxşı, biz və türklər müsəlmanıq. Bəs gürcülərdən nə istəyirlər?! Bəs Alban kilsəsi ilə nə işləri var?!

Bilirsiz, adi məntiqlə əgər insan bir yolun ona ziyan gətirdiyini görürsə, alternativi seçməlidir. Lakin ermənilər bunu bacarmırlar. Onların da arasında ağıllıların olduğunu etiraf etməliyik. Həmin adamlar təktərəfli bilet alaraq canlarını bu quldur hakimiyyətdən qurtarır, başqa ölkələrə gedirlər.

Başa düşürlər ki, Ermənistanda sözün əsl mənasında "adam yeyən" rejim hökm sürür. Ermənilər öz adamlarına qarşı da belədirlər. Keçmiş prezident Ter-Petrosyanın ölümlə hədələnərək devrilməsi, parlament binasının güllə-boran edilməsi o deməkdir ki, dağıdıcılıq onların ruhlarında, milli kimliklərində var.

"Meydan sulayanlar"ın ruhi və mənəvi cəhətdən sağlam adamlara təzyiq göstərməri ermənilərin "dava"larının hələ bitmədiyini göstərir".

**Kənan Novruzov**

**Ermənistan-Azərbaycan münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Haqq Azərbaycandan yanadır

## Özünə Avropa deyən bəzi ölkələr beynəlxalq hüququ tapdalayır

Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində əldə etdiyi parlaq qələbə ilə Dağlıq Qarabağ münaqişəsi başa çatdı. Ermənistan təslim olduğunu etiraf edərək, kapitulyasiya aktına imza atdı. İşğalçı Ermənistanın məğlubiyyəti 10 noyabrda Azərbaycan, Ermənistan və Rusiya arasında imzalanmış Üçtərəfli Bəyanatda da əksini tapdı. Lakin münaqişənin Azərbaycanın qələbəsi ilə həlli erməni lobbisini ciddi narahat etməkdədir.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

Onlar hələ də reallığı qəbul etmək istəmirlər və dünyanın müxtəlif ölkələrində Azərbaycan əleyhinə fəaliyyətlərini gücləndirməyə cəhd edirlər. Əfsuslar olsun ki, erməni diasporu və lobbisinin təsiri altında olan üç-beş Avropa ölkəsində anti-Azərbaycan, anti-Türkiyə, islamofob qərarlar qəbul olunur. Bu ölkələrin parlamentində ultra-sağçı və ultra-millətçi qüvvələrin fəallığı açıq şəkildə özünü göstərir. Məlum olduğu kimi, üçtərəfli Bəyannaməyə ilk narazılıq edənlərdən biri Fransa rəhbəri E.Makron oldu. Makron ilk günlərdən işğalçını dəstəkləyən qərəzli çıxışları ilə niyyətini büruzə verdi. Daha sonra Dağlıq Qarabağ ətrafındakı vəziyyətlə bağlı Fransa Senatında qəbul olunmuş qərəzli qətnamə həm ölkə daxilində, həm də beynəlxalq mediada heç də birmənalı qarşılanmadı. Məsələ ondadır ki, sülhün əldə olunmasına hansısa şəkildə öz adını yazdırmaq cəhdləri Fransanı nə yolla olur-olsun Minsk qrupunun fəaliyyətinin bərpasına vadar edir. Belə halda Fransanın prosesi əngəlləmək və mümkün qədər uzatmaq məqsədi ilə ”Türkiyə hərbiçiləri” və ”Suriya muzdluları” kimi saxta və yalan məlumatlar əsasında yeni problemlər yaratmaqdan başqa çarəsi qalmır. Məhz bu uydurma iddialar da Senatın Qətnaməsində öz əksini tapmışdı.

Senatın ardınca digər Avropa ölkələrinin liberallarını təmsil edən siyasi partiyalar tərəfindən oxşar qətnamə layihələrinin irəli sürülməsi də münaqişənin başa çatmasında maraqlı olmayan qüvvələri üzə çıxardı. Belçika ”makronçuları” da son iki ayda bir neçə dəfə oxşar qətnamə layihələrini federal parlamentin beynəlxalq məsələlər komissiyasının müzakirəsinə çıxarıblar. Bu da təsadüfi deyil, bir tərəfdən Belçika Avropada Fransaya ən yaxın olan yeganə fransız dilli ölkədir. Digər tərəfdən, hazırda Belçikada hakimiyyətdə olan siyasi qüvvələr məhz Makron partiyasının tərəfdaşları olan liberallardır. Belçikanın 14 oktyabrda müzakirəyə çıxartdığı qətnamə layihəsində də Azərbaycandan hərbi əməliyyatların dərhal dayandırılması və geri çəkilməsi tələb olunur, ”xarici muzdlulardan istifadə olunması” kəskin pislənilir. O cümlədən Azərbaycana və Türkiyəyə qarşı sanksiyalar tətbiq olunması haqqında tələblər irəli sürülürdü. 18 noyabr qətnamə layihəsinin müəllifləri daha da irəli gedərək Parisdə olduğu kimi Brüsseldə də qondarma ”Arsax Respublikasının” diplomatik nümayəndəliyinin yaradılması təşəbbüsü ilə çıxışlar etdilər. Hər iki qətnamə layihəsinin müəllifləri arasında Qarabağ ərazisinə qanunsuz səfərlər etmiş, Belçikada kök salmış erməni lobbisindən maliyyə dəstəyi alan korrupsiyalaşmış siyasətçilər var. Qətnamə layihəsində yer alan ”Türkiyənin və xarici muzdluların dəstəyi ilə Azərbaycanın Dağlıq Qarabağa təcavüzü” kimi ifadələr isə ermənilərin saxtakar qara təbliğatını təkrarlayır və mətnin erməni lobbisinin diktəsi ilə yazıldığını aydın göstərir.

Son olaraq 24 dekabr 2020-ci il tarixində Lüksemburq Böyük Hersoqluğunun Deputatlar Palatası tərəfindən Azərbaycanın işğaldan azad edilmiş Qarabağ bölgəsi ilə bağlı qərəzli qətnamə qəbul edilib. Parlamentin Xristian-Sosialist Siyasi Partiyasının ermənipərəst üzvü Klod Viseler tərəfindən irəli sürülən bu qətnamədə bölgədəki vəziyyətlə bağlı həqiqətlər təhrif olunub, Azərbaycan və Türkiyəyə qarşı əsassız ittihamlar irəli sürülüb. Azərbaycan Xarici İşlər Nazirliyinin qəbul olunmuş qərəzli qətnamə ilə bağlı açıqlamasında bildirilib ki, Lüksemburq Parlamentini bölgədəki uzunmüddətli münaqişənin həlli, BMT TŞ qətnamələrinin həyata keçirilməsi, onilliklərdir fundamental hüquqları pozulan məcburi köçkünlərin hüquqlarının bərpa olunması ilə yaranmış yeni vəziyyətlə yox, bölgə dövlətləri arasında ədavətin alovlandırılmasında maraqlıdır: ”Qətnamənin hər hansı hüquqi qüvvəsinin olmamasına rəğmən, Lüksemburq Parlamentinin beynəlxalq hüquqa zidd olan sənədlərlə çıxış etməsi, bölgədəki vəziyyəti öyrənmədən yanlış ittihamlar irəli sürməsi bu qurumun qərəzli mövqeyindən xəbər verir. Lüksemburq qanunverici qurumunun üzvləri əgər bölgənin, o cümlədən Ermənistanın gələcəyini düşünsəydilər, o zaman 10 noyabr tarixli üçtərəfli bəyanatın icrasını, bölgədə sülh, təhlükəsizlik və rifahın yaradılması üçün yeni əməkdaşlıq imkanlarından faydalanmaq fikirlərini təşviq edərdilər. Vurğulamaq istərdik ki, bu kimi təxribat xarakterli və qərəzli sənədlərin qəbulu bölgənin beynəlxalq hüquq prinsiplərinə hörmət əsasında gələcək inkişafı və tərəqqisinə mane ola bilməyəcək”.

### Azərbaycan və qardaş Türkiyə belə təzyiqlərdən dolayı öz haqlı mübarizəsindən heç vaxt geri çəkilməyəcək

Prezident İlham Əliyev də işğaldan azad edilmiş Qubadlı və Zəngilan rayonlarına səfəri zamanı qərəzli qətnamə qəbul edən ölkələrə müraciət edib: ”Fransa parlamentinin deputatları, Belçika, Hollandiya parlamentlərinin deputatları, baxın, sizin sevimli ermənilər nələr edibler bu torpaqlarda? Açın xəritəyə baxın, ensiklopediyaya baxın, görün Zəngilan rayonu, Qubadlı rayonu hansı ölkənin tərkib hissəsidir. Qətnamələr qəbul edirsiniz. Başınıza dəysin bu qətnamələr”.

Lüksemburqla paralel Belçikanın paytaxtı Brüsselin İxelles bələdiyyəsi də Dağlıq Qarabağla bağlı qərar layihəsi hazırlayıb. Diaspor la İş üzrə Dövlət Komitəsindən verilən məlumata görə, Brüsseldə yaşayan Azərbaycan icmasından bildirilib ki, qərar layihəsinin ilkin versiyasında ölkəmizə qarşı qərəzli mövqe ifadə olunub. İcma üzvlərinin İxelles bələdiyyə rəhbərliyinə ünvanladığı müraciət, eləcə də keçirilən görüşlər nəticəsində ədalətli yanaşma təmin edilib və qərarın mətninin dəyişdirilməsinə nail olunub. Xatırladaq ki, Brüsselin 19 bələdiyyəsindən biri olan İxelles bələdiyyəsi paytaxtın mərkəzi hissəsində yerləşir. 90 min nəfərə yaxın əhalisi olan bu ərazidə 170-dən çox xarici ölkənin vətəndaşı məskunlaşıb.

Ekspertlərə görə, bu çirkin kampaniyanın başında Fransa dövləti durur. Ölkənin siyasi korrupsionerləri də bu ”iş”də fəaldır. Məqsədləri bölgədə münaqişəni yenidən qızışdırmaq, məğlub olmuş erməni ordusunu və xalqını psixoloji baxımdan Azərbaycana qarşı nifrətlə yükləməkdir. Mövcud olmayan rejimi gündəmə gətirmək erməniləri aldatmaqla bərabər, çirkin maraqlardan xəbər verir. Həm də Lüksemburq, Belçika, Hollandiya və Fransa parlamentlərində bu kimi qərarlar, Azərbaycan və Türkiyənin Ermənistanla gələcəkdə normal münasibətlər qurmasına ciddi zərbə vurur.

**Fransa başda olmaqla Avropanın bir sıra ölkələrinin Azərbaycan və Türkiyəyə qarşı açıq qərəzini ”Şərq”ə dəyərləndirən Milli Strateji Tətqiqatlar Mərkəzinin sədri Natiq Miri deyib ki, Fransa Senatında qəbul olunan ”qətnamə” rəsmi Parisin ipini çəkdiyi bəzi dövlətlərə də stimul oldu.** Analitikin sözlərinə görə, Hollandiya, Belçika və Lüksemburq parlamentlərində ard-arda bu yöndə qərarların verilməsi ”yuxarıdan” gələn təlimat əsasındadır: ”Qətnamə qəbul edən ölkələrin Fransaya bağlılığı bəllidir. Doğrudur, bu cür ”qətnamələr” heç bir hüquqi məsuliyyət yaratmır. Ancaq hər bir halda atılan addımlar həmin ölkələrin Azərbaycan və Türkiyəyə qarşı olduğunu, Ermənistanı dəstəklədiklərini ortaya qoyur. Bu cür yanaşmanın kökündə iki əsas məsələ dayanır. ”Qətnamələrin” qəbul olunması perspektivdə Dağlıq Qarabağda yaşayan ermənilərə xüsusi statusun verilməsi ilə əlaqədardır. ”Qətnamələr” rəsmi Bakıya təzyiq xarakteri daşıyır. Digər məqam isə birbaşa Türkiyə ilə bağlıdır. Fransa Aralıq dənizinin şərq hissəsində Türkiyənin enerji ehtiyatları ilə bağlı fəaliyyətinə qarşı çıxır, bunu önləmək üçün davamlı cəhdlər göstərir. Senatda Türkiyəyə qarşı qəbul edilən ”qətnamə” birbaşa Parisin maraqlarına xidmət edir. Məqsəd qardaş ölkəni Şərqi Aralıq dənizi regionundan kənarlaşdırmaqdır. Bu cür addımların hamısı əbəsdir. Azərbaycan və qardaş Türkiyə belə təzyiqlərdən dolayı öz haqlı mübarizəsindən heç vaxt geri çəkilməyəcək. Fransa Türkiyə ilə girişdiyi mübarizədə ardıcıl məğlubiyyətə, uğursuzluğa düçar olacaq. Ələlxüsus, Prezident E.Makronun bu istiqamətdə siyasəti iflasa uğrayacaq. Ümidini üzməyən Makron hələ də çalışır ki, müəyyən ”nailiyyətlər” əldə edərək 2022-ci ildə Fransada keçiriləcək seçkilərdə ermənilərin dəstəyindən məhrum qalmasın. Ancaq bunun sonu da fiaskodur. Niderland, Belçika və Lüksemburq kimi ölkələrin nə Cənubi Qafqaz regionunda, nə də Dağlıq Qarabağ prosesində təsir imkanları var”.

Siyasi şərhçiyə görə, bölgənin problemləri bundan sonra Rusiya-Azərbaycan və Türkiyə müstəvisində həll olunacaq: ”Türkiyə həm regional, həm də qlobal müstəvidə siyasi aktora çevrilib. Yaxın Şərqdə, Aralıq dənizində olduğu kimi, Cənubi Qafqazda da problemləri Türkiyəsiz çözmək imkansızdır. Fransa və onun nəzarətində olan ölkələrin məsələyə yanaşması nəyisə həll etmək gücündə deyil. Sadəcə həmin dövlətlər bu kimi qərarları ilə dövlətlər arasında normal münasibətlərin formalaşmasına mane olurlar. Əgər qərəzli mövqe sərgiləməyə davam edərlərsə, Fransa, Niderland, Belçika və Lüksemburq kimi ölkələr Azərbaycan və Türkiyə ilə iqtisadi əməkdaşlıqdan məhrum qalacaqlar”.

*N.Miri bildirib ki, 44 günlük Vətən müharibəsində Azərbaycan informasiya müharibəsində Ermənistanı dəfələrlə üstələdi:* ”Dünya ictimaiyyətinə bəlli oldu ki, həqiqətən də haqlı tərəf Azərbaycandır. Beynəlxalq səviyyədə erməni iddialarına ciddi zərbə dəydi. Təkcə erməni hökuməti deyil, həm də erməni diasporası böyük məğlubiyyət yaşadı. Nəzərə alaq ki, Avropanın bəzi ölkələrində qəbul edilən siyasi ”qətnamələr” beynəlxalq hüquqa daban-dabana ziddir. Çünki ortada BMT-nin Təhlükəsizlik Şurasının 4 qətnaməsi və digər beynəlxalq sənədlər var. TŞ-nin daimi üzvü statusu daşıyan və 4 qətnamədə imzası olan Fransanın qərəzli və uydurma qətnamələr qəbul etməsi ilk növbədə özözünü inkar etməkdir. Bu addım Fransanın və Belçikanın beynəlxalq imicinə ciddi xələl gətirir. Artıq dünya ictimaiyyəti reallığın fərqindədir. Ona görə də qətnamələrin beynəlxalq dəstək alacağını düşünmək absurd olar. Hamısı qısamüddətli geosiyasi maraqlara xidmət edən addımlardır”.

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap olunub

# Ən yaxşı nümunə Türkiyədir



## Biz də sığorta təbabətini qurmaq üçün qardaş ölkənin təcrübəsindən yararlana bilərik

*"Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən 2021-ci il yanvarın 1-dən etibarən vətəndaşlardan icbari tibbi sığorta haqları tutulacaq. Dövlət və neft sektorunda çalışan işəgötürən və işçilərdən aylıq hesablanmış əməyin ödənişi fondunun 8000 manata qədər olan hissəsindən 2 faiz, 8000 manatdan yuxarı olan hissəsindən 0.5 faiz miqdarında icbari tibbi sığorta haqqı tutulacaq.*

Qeyri-dövlət və qeyri-neft sektorunda çalışan işəgötürən və işçilərdən aylıq hesablanmış əməyin ödənişi fondunun 8000 manata qədər olan hissəsindən ödənilən sığorta haqqının məbləğinə 2022-ci il yanvarın 1-dək 50 faiz güzəşt tətbiq edilir. Bunu nəzərə alaraq, qeyri-dövlət və qeyri-neft sektorunda çalışan işəgötürən və işçilərdən aylıq hesablanmış əməyin ödənişi fondunun 8000 manata qədər olan hissəsindən 1%, 8000 manatdan yuxarı olan hissəsindən 0.5% miqdarında icbari tibbi sığorta haqqı tutulacaq.

Vətəndaşlar İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin rəsmi internet saytında yerləşdirilən kalkulyatordan istifadə etməklə əməkhaqqlarından və ya gəlirlərindən tutulan icbari tibbi sığorta haqqının məbləğini hesablaya bilərlər.

Məlumdur ki, ölkəmizdə icbari tibbi sığortanın tətbiqi uzun zamandır müzakirə olunur. Artıq yanvar ayından etibarən sığorta haqlarının tutulacağını nəzərə alsaq, ortaya bir sıra sual çıxır.

**Mövzunu tibb elmləri doktoru, professor-həkim Adil Qeybulla ilə aydınlaşdırmağa çalışdıq. "Şərq"ə açıqlamasındabildirib ki, artıq az qala 20 ildir, icbari tibbi sığortanın tətbiq ediləcəyini eşidirik:** "1994-cü ilin fevral ayında tibbi sığorta ilə bağlı Prezidentin Sərəncamı var. Lakin tibbi sığorta bu günə qədər tətbiq edilməyib. Nə zaman olacağı da dəqiq bilinmir".

Professor qeyd edib ki, əsas məsələ icbari tibbi sığortanın həyata keçirilmə mexanizmidir: "Yevlax və Mingəçevirdə olduğu kimi həyata keçirsələr, mənasızdır, effektiv mexanizm qurmalıdırlar. Məsələ budur ki, sığorta olunacaq şəxslər kateqoriyalara bölünməlidir. Kateqoriyalar müəyyən edildikdən sonra hər kəsin sığorta vəsiqəsi olmaldır. Eyni zamanda tibbi sığortaya hansı xidmətlərin daxil olacağı müəyyənləşdirilməlidir. Məsələn, kim nə vaxt istəsə, xəstəxanaya gəlib hansısa tibbi proseduru tələb edəcəksə, bu, düzgün deyil. İlk növbədə tibbi sığortaya aid olan xidmətlər həyata keçirilməlidir. Xəstələr növbəyə yazılmalı və öz vaxtlarında xəstəxanaya gəlməlidirlər"

**A.Qeybulla vurğulayıb ki, sığorta təbabətini qurmaq elə də asan deyil:** "Türkiyə, Almaniya modelindən istifadə etmək lazımdır. Lakin biz bilmirik ki, ölkəmizdə hansı modeldən istifadə olunacaq. Hər halda Azərbaycan modelindən istifadə edəcəklər. Amma konkret olaraq bir ölkənin təcrübəsindən yararlanmaq lazımdır. Fikrimcə, ən yaxşı nümunə Türkiyədir. Türkiyədə sığorta xərcləri dövlətlə vətəndaş arasında bölünür. İlk növbədə təxirəsalınmaz prosedurları sığortya aid etmək lazımdır".

**Yeganə Bayramova**



## "Gənc, dinamik yazıçılarımız, rejissorlarımız çoxdur"

### İşğalın nəticələrini ekranlaşdırmaq üçün imkanlarımız genişdir

**Milli Məclisin Mədəniyyət komitəsinin sədri, millət vəkili Qənirə Paşayeva Məclisin büdcə müzakirələri zamanı bir sıra ələ və təkliflər verib.**

Cənab Prezidentin işğaldan azad edilmiş bölgələrə səfər etdiyini vurğulayan Q.Paşayeva dövlət başçısının da dediyi kimi, vəhşi düşməndən azad edilmiş torpaqlarımızda bütün digər dağıntılar kimi, abidələrin, ibadətgahların, muzeylərin də viran edildiyini, bir hissəsininsə - məsələn, qıpçaq alban kilsələrinin "erməniləşdirildiyi"ni bildirib.

Ona görə də 2021-ci il büdcəsində mədəniyyət abidələrinin bərpası, o cümlədən işğalın nəticələrinin dünyaya tanıdılması məqsədi ilə filmlərin çəkilməsi üçün vəsaitin nəzərdə tutulmasını təqdir edib.

**Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar təklif barədə fikirlərini "Şərq"lə bölüşüb:** "Əlbəttə, yaxşı olar. Təki olsun. Fikrimcə, lazımi şərait yaratmaq ən mühüm məsələdir. Bundan sonra kifayət qədər iş görmək olar. İşğalın nəticələrini ekranlaşdırmaq üçün bacarıqlı, gənc, dinamik yazıçılarımız, rejissorlarımız çoxdur".

**Kənan Novruzov**



# Ağır fəsadlar geri qayıda bilər

## Koronavirusdan sağalanlar müalicəni davam etdirməlidirlər

*Yeni növ koronavirus (COVID-19) pandemiyası zamanı ağız boşluğu gigiyenasına xüsusi diqqət yetirilməlidir.*

COVID-19 virusuna yoluxmuş şəxsin asqırması və ya öskürməsi zamanı ağız və burun boşluğundan havaya buraxılan kiçik damcılar vasitəsilə virus yayılaraq digər insanlara keçə bilər. Yoluxma damcının başqasının nəfəs yoluna düşməsi nəticəsində baş verir. Koronavirus əvvəl boğaza düşür, sonradan isə tənəffüs yolları və ciyərlərdə yerləşən hüceyrələrə keçir. Hazırda istər koronavirusa yoluxmamaq üçün, istərsə də koronavirusa yoluxanlar qarqaradan istifadə edirlər. "Britiş jurnal"ın yaydığı məlumata görə, tərkibində xlorqeksilin və setilpiridinyum xlorid olan qarqaralar koronavirusa qarşı daha effektlidir. "Xlorqeksil Ekstra" məhsulunda isə bu komponentin hər ikisi var və Avropada "Xlorqeksil" qarqarasından məhz koronavirusa yoluxma riskinə və yayılmasına qarşı gündəlik gigiyenada çox geniş istifadə olunur. Xlorqeksidin tərkibli "Xlorqeksil" antiseptik təsir göstərib, ağız boşluğunda olan virus, mikrob, bakteriya və göbələklərə qarşı mübarizə aparır.

**Məsələ ilə bağlı "Şərq"ə açıqlama verən həkim Sevindik Şirinov deyib ki, gündəlik "Xlorqeksil"in istifadəsinin koronavirusa yoluxma riskini azaldıb azaltmaması sübut olunmamış bir metoddur.** Buna görə də insanlar bundan istifadə edərkən son dərəcə ehtiyatlı olmalıdırlar. Həkim həmçinin diqqətə çatdırıb ki, COVİD-19 xəstələri 14 gün müalicə aldıqdan sonra hər şey bitdi deyib müalicələrini davam etdirmirlər: "Koronavirusa yoluxmuş şəxslər müalicələrini saxlamamalıdırlar. Təbii ki, yəni əgər simptomatika davam edirsə. Çünki bu halda ağır fəsadlar baş verə bilər".

**Aynurə Pənahqızı**

# Səhiyyə sistemi iflic vəziyyətindədir

## Vacib dərmanları ancaq qara bazarda tapmaq olur



*Son günlər ölkəmizdə Səhiyyə Nazirliyi və TƏBİB-in fəaliyyətinə dair ciddi narazılıqlar var. Vətəndaşlar sosial şəbəkələrdə hər iki qurumun iş standartlarında böyük çatışmazlıqlar olduğunu bildirirlər.*

Onsuz da ölkəmizdə koronavirusla bağlı vəziyyət günü-gündən ağırlaşır. Sərt karantin rejiminə baxmayaraq, yoluxma və ölüm halları ürəkaçan deyil.

Belə bir zamanda iki qurum arasındakı çəkişmələr günahsız insanların "başında çatlayır".

Səhhəti ağırlaşan koronavirus xəstələri TƏBİB və Səhiyyə Nazirliyinin fəaliyyətsizliyi nəticəsində qurbana çevrilirlər. Bir sözlə, nə həkim tapılır, nə təcili yardım maşını, nə də xəstəxanalarda yer. Vətəndaşların sualları cavabsız qalır. Dərmanların apteklərdən yığışdırılaraq "qara bazar"da baha qiymətə satılması bu sahədəki durumun hansı vəziyyətdə olduğunu göz önünə sərir.

**Azərbaycan Demokrat Partiyasının (ADP) sədri, ixtisasca həkim olan Sərdar Cəlaloğlu mövcud durumla bağlı "Şərq"ə danışıb. Partiya sədri bildirib ki, ölkəmizdə səhiyyənin təşkili bərbad vəziyyətdədir:** "Azərbaycan səhiyyə sistemi demək olar ki, iflic haldadır. Bəzi həkimlər özəl klinakalarda vətəndaşlara kifayət qədər baha qiymətə yardım göstərirlər. Beləliklə, səhiyyədəki eybi bir az da olsa örtürlər. Lakin bu durum vətəndaşlara həddindən artıq baha başa gəlir.

Səhiyyənin inkişafında hansısa müsbət dəyişiklik hiss olunmur. Ona görə də vətəndaşlar mövcud vəziyyətdən narazıdır".

**Yeganə Bayramova**

# Müəllimlərin işə qəbul imtahanı formatı dəyişməlidir

## Öncə psixologiyaları yoxlanılmalı, sonra biliyə baxılmalıdır. Savadlı ola bilər, lakin hər savadlı insan mütəxəssis deyil



Müəllim peşəsi haqqında çox sözlər, ifadələr işlədilir. Bu peşə dünyanın ən şərəfli məsləklərindən biri, bəlkə də birincisidir. Cəmiyyət üçün faydalı şəxsiyyətlərin yetişdirilməsində müəllimin rolu böyükdür. Lakin hamı bu ada layiq ola bilirmi? Əlbəttə yox.

> "İmtahanda yüksək bal toplayan müəllimlərdən sinifdə jurnal belə yaza bilməyənləri var..."

Xüsusilə də son zamanlar müəllim adına yaraşmayan şəxslərin məktəblərdə, təhsil müəssisələrində çalışdığını görürük. Sosial şəbəkələri onların bir pedaqoqa uyğun olmayan davranışları "bəzəyib". Məsələn, karantin rejimini pozan "məşhur" direktorun bayrağı başına taxıb rəqs etməsi hər kəsi qəzəbləndirib. Baxırıq, məyus oluruq. Axı həmin şəxslərə görə müəllimlik də hörmətdən düşür. Ona görə müəllimlərin işə qəbul imtahanından sonra, müsabiqə iştirakçılarının psixoloji testlərdən keçməsi məqsədəuyğundur.

**"Şərq" mövzunu ekspertlərlə müzakirə edib. Təhsil eksperti Kamran Əsədov məsələni belə dəyərləndirdi:**

"Təhsil sistemində kadr probleminin həlli üç mərhələdə həll edilirdi. 2009-cu ilə qədər problemlərdən biri müəllim kimi çalışan şəxslərin qanunsuz yollarla işə qəbul edilməsi idi. Bu zaman saxta diplomlardan, sənədlərdən də istifadə olunurdu. Prosesin özünün şəffaf həyata keçirilməsində, uğurlu təhsil üçün faydalı şəxslərin seçilməsində nöqsanlar vardı. 2009-cu ildən etibarən müəllimlərin işə qəbulu mərkəzləşdirildi, 2013-cü ildən proses daha da təkmilləşdirildi. Xüsusilə bilik və bacarıqları ən yüksək olanlar təhsil sisteminə qəbul edildi. Hazırda qəbul prosesi tamamilə obyektiv və şəffafdır. Amma keyfiyyətlidirmi? Təəssüflər olsun ki, müəllimlərin işə qəbulunda yalnız iştirakçıların bilikləri yoxlanılır. Onların bacarıqları və psixologiyaları nəzərə alınmır. Dünya təhsil sistemində, xüsusilə də Finlandiyada, Sinqapurda, Cənubi Koreyada müəllim olmaq çətindir. Məsələn, Finlandiyada bakalavrla bərabər magistr təhsili də tələb olunur. Amma Azərbaycanda kollec məzunu belə müəllim kimi çalışır. İnkişaf etmiş ölkələrdə müəllim olmaq üçün akademik göstərici 80 faizin üzərində olmalıdır. Bizdə qiymətləri 3 olan da müəllim kimi fəaliyyət göstərir. Avropa və Amerika, həmçinin Asiyanın inkişaf etmiş ölkələrində müəllimi işə götürəndə metodikası, psixologiyası, fərdi yanaşması da yoxlanılır. Ailə vəziyyəti belə nəzərə alınır. Məsələn, dünyanın bir sıra ölkələrində övladı olmayan və ya ailəsi dağılmış şəxsləri müəllimliyə qəbul etmirlər. Yəni müəllim seçimində kifayət qədər kriteriyalar var. Seçməklə də iş bitmir. Rusiyada hər il müəllimlər imtahandan keçir. Hər il bilik və bacarıqları yoxlanılır. Müəyyənləşdirilmiş kriteriyalara cavab verirsə, əmək müqaviləsi yenidən bağlanır, işə davam edir. Azərbaycanda da bu sistem tətbiq edilməlidir".

*K.Əsədov deyib ki, imtahanda yüksək bal toplayan müəllimlərdən sinifdə jurnal belə yaza bilməyənləri var:* "Deməli, müəllimlərin işə qəbul imtahanı qısa müddət üçün həyata keçirilir. Lakin bu iş mərhələli şəkildə aparılmalıdır. Həm biliyi, həm məntiqi, həm düşünmə tərzini, həm də psixologiyasını yoxlamaq lazımdır. Yekunda göstəriciləri yüksək olsa əmək müqaviləsi imzalanar. Bu gün müəllimlərin şagirdlərə, tələbələrə yanlış rəftarının, cəmiyyətdə onlara qarşı yaranan aqressiyanın kökündə də psixoloji yoxlanışın olmaması dayanır. Ona görə müəllimlərin işə qəbul imtahanının formatı dəyişməlidir. Öncə psixologiyaları yoxlanılmalıdır, sonra biliyə baxılmalıdır. Savadlı ola bilər. Lakin hər savadlı insan mütəxəssis deyil. Müəllimlik tamam başqa sahədir. Həkim kimi səhv işləyib xəstəni öldürə, sürücü kimi maşını idarə etməyi bacarmaya bilər. Lakin müəllim bir nəsli məhv edir. Sinifdə 30 uşaq varsa hamısının gələcəyinə təsir göstərir. Ona görə bu sahə təkmilləşdirilməlidir".

**Psixologiya Elmi Tədqiqat İnstitutunun sədri, psixoloq Elnur Rüstəmov isə bir sıra ölkələrdə müəllimlərin psixoloji testlərdən keçdiyini söyləyib:** "Məsələn, Türkiyənin təhsil sistemində istər məktəb rəhbərlərinə, istərsə də müəllimlərə mütəmadi olaraq psixoloji treninqlər təşkil edilir. Eyni zamanda onlar işə qəbulda psixoloji testlərdən keçirilir. Bu işdə məktəb direktorları, müəllimlər, şagirdlər və məktəb psixoloqlarına, valideynlərə psixoloji yardım nəzərdə tutulur. 2020-ci ilin aprel ayında Nazirlər Kabineti tərəfindən ümumtəhsil müəssisələrində psixoloji təlimin təşkili ilə bağlı qaydalar təsdiq olunub. Orda bütün məsələlər öz əksini tapıb. Yalnız həyata keçirmək qalır. Məktəb direktorları imtahan verib, seçilirlər. Həm də onlar müəyyən müddət məktəbə rəhbərlik edə bilirlər. İslahatlar mərhələli həyata keçirilir. Əlbəttə, işə qəbulda məktəb direktorları, müəllimlər mütləq şəkildə psixoloji testdən keçməlidirlər. Bu sistem tətbiq olunsa, Azərbaycan təhsili qazanacaq. Bir çox problemlərin qarşısı alınacaq".

**Samirə Ərəbova**

## Peşə təhsili diplomunun tanınması üzrə xidmət haqları müəyyənləşib



**Nazirlər Kabineti "Peşə təhsili üzrə qeyri-formal və informal təhsil formaları vasitəsilə əldə edilmiş bilik, bacarıq, səriştə və təcrübənin qiymətləndirilməsi və tanınması sahəsində göstərilən xidmətlərin siyahısı və həmin xidmətlərə görə Təhsil Nazirliyinə ödəniləcək haqların məbləği"ni təsdiq edib.**

Baş nazir bununla bağlı qərar imzalayıb.

Qərara əsasən, peşə təhsilinə dair qeyri-formal və informal təhsil formaları vasitəsilə əldə edilmiş biliklərin müvafiq ixtisas üzrə qiymətləndirilməsi və tanınması üzrə bir xidmətin haqqı 100 manat məbləğində, peşə təhsili üzrə qeyri-formal və informal təhsil formaları vasitəsilə əldə edilmiş bacarıq, səriştə və təcrübənin müvafiq ixtisasın təhsil proqramının (kurikulumun) bir modulu üzrə qiymətləndirilməsi üzrə bir xidmətin haqqı 80 manat məbləğində müəyyən edilib.

Eyni zamanda peşə təhsili üzrə qeyri-formal və informal təhsil formaları vasitəsilə əldə edilmiş bilik, bacarıq, səriştə və təcrübənin qiymətləndirilməsinin və tanınmasının nəticəsi olaraq təkrar peşə təhsili sənədinin (diplom, sertifikat) itirilməsi və ya korlanması ilə əlaqədar yenidən verilməsi üzrə bir xidmətin haqqı 20 manat məbləğində müəyyən edilib.

## Gizli yolla Qubaya gedən iki qardaş saxlanıldı



**Karantin qaydalarını pozan iki qardaş məsuliyyətə cəlb olunub.**

Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətindən bildirilib ki, Quba Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən xüsusi karantin qaydalarını pozaraq rayon ərazisinə gizli yollarla daxil olan Şabran rayon sakinləri - Asim və Mail Babayevlər saxlanılıblar.

Araşdırmalar zamanı məlum olub ki, hər iki şəxs müvafiq icazələri olmadan rayonun giriş hissəsində qurulmuş müvəqqəti postun kənarında yerləşən bağ sahələrindən keçməklə Quba rayonuna qanunsuz olaraq daxil olublar.

Saxlanılan hər iki şəxs barədə qanunvericiliyə uyğun olaraq tədbir görülüb və onlar inzibati qaydada məsuliyyətə cəlb olunublar.

# Dələduzlardan mütləq şikayət olunmalıdır

## Sayğac əvəzlənməsinə görə vətəndaşlardan pul almaq qanunsuzluqdur

Sayğac əvəzlənməsi zamanı Xaçmaz rayonunda kimlərinsə vətəndaşlarla guya hansısa sövdələşmələrə getməsinə dair məlumat yayılıb.

"Azəriqaz" İB-dən verilən məlumata görə, ümumiyyətlə, qaz sayğaclarının əvəzlənməsi zamanı kiminsə vətəndaşdan pul tələb etməsi qanunsuzdur.

Buna baxmayaraq zaman-zaman belə hallarla rastlaşırıq. Sayğac əvəzlənməsində vətəndaşdan pul tələb edən dələduzlar olur. "Azəriqaz" da belə fırıldaqlara inanmasınlar deyə əhaliyə müraciət edib:

"Abonentlərdən xahiş edirik ki, heç kimə bu əməliyyatın icrası zamanı pul verməsin. Çünki dövri yoxlama müddəti çatmış (əhali abonent qrupunda 5 ildən bir) qaz sayğacları əvəzlənərkən hər hansı vəsait tələb olunmur. Bu əməliyyat "Azəriqaz" İstehsalat Birliyi tərəfindən pulsuz icra olunur. Əgər hansısa dələduz əmələ qurşanan şəxslə belə bir sövdələşmə edirlərsə, bundan



asılı olmayaraq, sayğacda laboratoriya yoxlaması zamanı qüsur aşkarlanarsa, itirilmiş qazın bərpasının dəyəri sizdən mütləq tələb olunacaq".

**Vətəndaşların Əmək Hüquqlarının Müdafiəsi Liqasının sədri Sahib Məmmədov "Şərq"ə açıqlamasında deyib ki, qaz sayğaclarının dəyişdirilməsi üçün istehlakçıdan ödəniş tələb olunmur:** "Sayğacları bir neçə ildən bir dəyişirlər. Heç vaxt pul istənilməyib. Hər halda kimlərsə qeyri-rəsmi tələb edir. Burda borc qalıqlarının silinməsi, yaxud da qanunsuz qoşulma halı tapılıbsa, üzərini örtmək üçün pul alınmış ola bilər. Lakin insanlar bilməlidir ki, sayğacın əvəzlənməsi dövlət hesabına həyata keçirilən işdir. Ona görə belə halda vətəndaş müvafiq qurumlara müraciət etməlidir. Konkret şikayət edilsin ki, məndən pul tələb olunur. Məsələ araşdırılmalıdır, bu, dələduzluqdur. Şikayət olunmalıdır".

**Samirə**

# Gözü maaşda olan müəllim şagirdi öyrətməz



## Sadəcə olaraq şərait yaratmaq lazımdır ki, əməklərini bazara çıxara bilsinlər

2021-ci ilin dövlət büdcəsi layihəsi ətrafında müzakirələr zamanı deputat Aydın Mirzəzadə qeyd edib ki, sənəd yüksək səviyyədə hazırlanıb. O vurğulayıb ki, Xankəndi şəhərinin hüquqi statusu müəyyən edilməli, habelə nazirliklər bu şəhərdə yerli strukturlarını açmalıdır. Deputat bildirib ki, növbəti bir neçə ildə hərbi sahəyə ayrılan vəsait yüksək səviyyədə olmalıdır: "Azərbaycanda hərbçi, müəllim və həkimlər yüksək maaş almalıdır. Dünən elan edildi ki, səfərbərliyə çağırılan şəxslər 400 manat maaş alacaq. Bu, müsbət haldır".

**Müəllimlərin maaşlarının artırılması təklifinə münasibət bildirən təhsil eksperti Nabatəli Qulamoğlu "Şərq"ə açıqlamasında bildirib ki, ümumiyyətlə, müəllimin, yaxud digər işçilərin maaşı haqqında bir az fərqli düşünür.** Ekspert deyib ki, kimsə müəllimin maaşını artırmalıdır: "Çünki müəllimin gözü həmişə həmin adamın əlində olacaq və bu, qətiyyən düzgün yanaşma deyil. Müəllimlik də bir peşədir, digər peşə ustaları kimi. Sadəcə ayaqqabı ustasını götürək. Heç kim onun üçün maaş artırmır və yaxud da başqa ustalar. Müəllim də pedaqoji ustadır, yəni o, öyrətmə ustasıdır. Öyrətmə ustası üçün yalnız keyfiyyətli şərait yaratmaq lazımdır. Onun üçün təhsil bazarı yaratmaq daha məqsədəuyğundur. Həmin təhsil bazarı sayəsində müəllim biliyini, pedaqoji qabiliyyətini çıxaracaq və bazarda sata biləcək. Yalnız və yalnız bu yolla müəllimin marağını təmin etmək olar. Yoxsa əgər gözləsə ki, kimsə maaşımı artıracaq, istər Nazirlər Kabineti olsun, istərsə də Prezident olsun, o müəllim daim asılı vəziyyətdə olacaq. O nöqteyi-nəzərdən hesab edirəm ki, hər hansı bir ölkədə pedaqoqlar üçün normal şərait yaranmalıdır ki, onlar özü-öz qabiliyyəti ilə əməyinin qarşılığını, yəni pulunu qazana bilsin".

**Təhsil eksperti vurğulayıb ki, təəssüf ki, biz də belə bir şərait yoxdur:** "Sadəcə bir misal deyim. Deyək ki, Azərbaycan iqtisadiyyatının hardasa 90 faizi özəl əllərdədir. Amma Azərbaycan təhsilinin 90 faizi dövlət sektoruna aiddir. Təsəvvür edin ki, dövlət sektoru bütün müəllimin azadlığını, qabiliyyətini buxovlayan bir sektordur. Özəl sektora, sektorlararası rəqabətə, eyni zamanda sektordaxili rəqabətə, inkişafa şərait yaratmaqla müəllim özü öz əmək haqqını qazanacaq. Eyni zamanda, digər vacib problem də həll olunacaq. Öz peşəsinin öhdəsindən gəlməyi bacarmayan müəllimlər artıq o təhsil bazarını tərk etməyə məcbur olacaqlar. Heç kim deyə bilməyəcək ki, filan müəllim savadsızdır, məktəbdə dərs deyir. Avtomatik şəkildə valideynlər müəllimi seçəcək. Hansı müəllim bacarıqlıdır, istifadə edib hər kəs yararlanacaq. Bax budur yolu!".

**Aynurə Pənahqızı**

## Komandirini xilas edərkən özü şəhid oldu, haqqında film çəkildi



**Azərbaycan Dövlət Akademik Musiqili Teatrının rejissoru Samir Qulamovun quruluşunda "Döyüşən teatr" adlı sənədli filmi lentə alınıb.**

Sputnik Azərbaycan xəbər verir ki, sənədli film İkinci Vətən müharibəsində canını fəda edən şəhid Əliağa Məmmədov və Azərbaycan Dövlət Akademik Musiqili Teatrının Vətən müharibəsində iştirak edən əməkdaşlarına həsr olunub. Məlumat üçün bildirək ki, Əliağa Məmmədov Azərbaycan Dövlət Akademik Musiqili Teatrında işıqçı işləyib. Əliağa Məmmədov oktyabrın 6-da Ağdərə istiqamətində gedən döyüşlər zamanı komandirini xilas edərkən qəhrəmancasına həlak olub. Ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif olunub. Filmin ssenari müəllifi Samir Qulamov, quruluşçu operatoru ve montajçısı Hikmət Şahverdizadədir.

## İşğaldan azad edilən ərazilərdə çinar ağacı və palıd toxumları səpilir



**İşğaldan azad edilən ərazilərdə ağaclar kəsilərək ya odun kimi istifadə olunub, ya da mebel üçün fabriklərə daşınıb.**

Bunu Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinin rəisi Hikmət Əlizadə "Ekspert saatı" verilişində çıxış edərkən deyib.

Onun sözlərinə görə, işğaldan azad edilən ərazilərdə uzunmüddətli işlərə ehtiyac var. Artıq ETSN tərəfindən qiymətləndirmə işlərinə başlanılıb: "Hazırda həm müvafiq qiymətləndirmə işləri aparılır, həm də paralel olaraq mümkün olan ağacların əkilməsi həyata keçirilir. Xüsusilə də çinar ağacı və palıd toxumlarının səpilməsi prosesi gedir. Bir sözlə, həmin ərazilərdə hər gün davamlı şəkildə proseslər gedir və yaxın gələcəkdə genişmiqyaslı tədbirlər görüləcək".

## Qarabağ bölgəsi üzrə Ekologiya və Təbii Sərvətlər idarəsi yaradılıb

**"Bir neçə gün əvvəl işğaldan azad edilən Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan rayonlarında oldum. Ətraf mühit nöqteyi-nəzərindən çox acınacaqlı vəziyyətdir.**

Bizim gəzdiyimiz ərazilərdə demək olar ki, meşə ərazisi qalmayıb, nəinki meşə, heç ağac belə qalmayıb. Bir neçə kilometr yol getsəniz belə ancaq xarabalıqlar qalıb".

Bunu Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəsmi "facebook" səhifəsində "Ekspert saatı" adlı canlı yayımda Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinin rəisi Hikmət Əlizadə bildirib.

Onun sözlərinə görə, uzun illərdən bəri bütün ağaclar kəsilib, ya odun kimi istifadə olunub, içlik materiala yararlı ağaclar isə çox təəssüf ki, kəsilib və mebel sənayesi fabriklərinə daşınıb, satılıb: "O yerlərdə çox uzun müddətli işlərə ehtiyac var. İlk günlərdən etibarən Ekologiya və Təbii Sərvətlər Nazirliyi orada qiymətləndirmə işinə başlayıb. Bununla bağlı Qarabağ bölgəsini əhatə edən 12 saylı Ekologiya və Təbii Sərvətlər İdarəsi təsis edilib. Buna baxmayaraq, həm müvafiq qiymətləndirmə işləri gedir, həm də paralel olaraq mümkün olan ərazilərdə ağacların əkilməsi, (xüsusilə çinar ağaclarının, çünki o yerlər çinar ağaclarının məskəni idi), palıd toxumlarının səpilməsi prosesi demək olar ki, hər gün davamlı sürətdə gedir. Çox yaxın vaxtlarda daha ciddi, daha böyük miqyaslı işlər görüləcək".

# Pensiyalar artırılır

## Dövlətin ciddi planları var

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev parlamentin plenar iclasında çıxışı zamanı orta aylıq pensiya məbləğindən danışıb.

Komitə sədri bildirib ki, cari illə müqayisədə növbəti ildə orta aylıq pensiya məbləğinin 31,29 manat məbləğində və ya 10,4 faiz artması proqnozlaşdırılır. O bildirib ki, bu da həmin dövrdə ölkə üzrə inflyasiya səviyyəsindən (3,0 faiz) nəzərəçarpacaq dərəcədə çoxdur. Bu isə öz növbəsində pensiyaçıların sosial müdafiəsinə müsbət təsir göstərəcəkdir.

**Keçmiş maliyyə naziri, iqtisadçı Fikrət Yusifov verilən proqnozların özünü nə dərəcədə doğruldacağına dair fikirlərini "Şərq"lə bölüşüb.**

İqtisadçı qeyd edib ki, ölkəmizdə büdcə ilə bağlı pozitiv proqnozlar qəbul edilib: "Büdcənin həm gəlirləri, həm də xərclərində artımlar proqnozlaşdırılır. Əslində Vətən müharibəsi apardığımız və pandemiyanın baş verdiyi 2020-ci ildə iqtisadiyyatımız müəyyən itkilərlə üzləşdi.

Dünya iqtisadiyyatında da belə ənənə, yəni azalmalar baş verir. Belə bir şəraitdə pensiyaların artımı ilə bağlı büdcə proqnozlaşdırmaq, o deməkdir ki, növbəti ili daha pozitiv və sürətli inkişaf kimi görürük. Bunun da səbəbi odur ki, bəzi proqnozlar yəqin bizə belə mövqedə dayanmağa əsas verir.

Məsələn, mart-aprel aylarında pandemiyanın aradan qalxacağı və dünya iqtisadiyyatında yeni inkişaf meyllərinin baş qaldıracağı gözlənilir. Lakin bu faktın nə dərəcədə özünü doğruldacağı sual altındadır. Bizim də dövlət büdcəmizlə bağlı proqnozlar verilərkən bu gözləntilər nəzərə alınıb".



**F.Yusifovun qənaətincə, dövlətin ciddi planları var:** "Planlar içində xaricdən böyük həcmdə investisiyaların Azərbaycana cəlb edilməsi də ola bilər. Düşünürəm ki, bu amil planlarda yer alıb. Beləliklə, iqtisadiyyatımızda istədiyimiz addımlara nail ola bilərik. O zaman pensiya və digər sosial müavinətlərin artımı mümkün və realdır. Təbii ki, belə olan halda neftin qiymətləri də ən azından bugünkü səviyyədə qala bilər".

**Yeganə Bayramova**

# Yol polisi hərəkət iştirakçılarına müraciət edib



## Karantin rejimi qaydalarını pozan vətəndaşlar barəsində inzibati tənbeh tədbirləri görülür

**Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi hərəkət iştirakçılarına müraciət edib.**

İdarədən "Şərq"-ə bildiriblər ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarına əsasən, Baş Dövlət Yol Polisi İdarəsinin əməkdaşları tərəfindən dekabrın 14-ü saat 00:00-dan etibarən Bakı-Quba yolunun 52-ci, Bakı-Şamaxı-Yevlax yolunun 31-ci və Bakı-Qazax-Gürcüstan yolunun 65-ci kilometrliyində yerləşən xüsusi karantin keçid postlarında nəzarət-profilaktiki tədbirlər davam etdirilir. Həmin postlardan icazəsiz keçməyə cəhd göstərən şəxslər müəyyənləşdirilərək nəqliyyat vasitələri ilə birlikdə geri qaytarılır. Karantin rejimi qaydalarını pozan vətəndaşlar barəsində inzibati tənbeh tədbirləri tətbiq edilir.

"Lakin yoxlamalar zamanı müşahidə olunur ki, bəzi vətəndaşlar SMS vasitəsilə icazə alıb və ya buraxılış üçün əsas verməyən sənədlərlə postlardan keçməyə, daimi qeydiyyatda olduqları şəhər və rayonun ərazisindən müxtəlif yollarla çıxmağa çalışırlar. Bununla da müvafiq icazəsi olan şəxslərin ləngimələrinə, uzun müddət növbələrdə qalmalarına səbəb olur və onlara maneçilik törədirlər. İcazəsi olmayan şəxslər karantin postlarından buraxılmayacaqlarını nəzərə alıb, uzun məsafə qət edərək postlara gəlməklə həm vaxt itkisinə yol verməsinlər, həm də əlavə əziyyət çəkməsinlər.

Bir daha vətəndaşlarımızın diqqətinə çatdırırıq ki, bu istiqamətdə həyata keçirilən bütün tədbirlər əhalinin həyat və sağlamlığının qorunmasına xidmət edir. Ümid edirik ki, hər bir hərəkət iştirakçısı şəxsi məsuliyyətini artırmaqla, sərtləşdirilmiş karantin rejimi qaydalarına ciddi riayət etməklə bu qorxunc virusun geniş yayılmasının qarşısının alınmasında öz səylərini əsirgəməyəcək.

**Kənan**

## Əhalinin 90 faizi peyvənd edilməlidir...

### Əks halda müsbət nəticə verməyəcək



**"Sürü toxunulmazlığının əldə edilməsi üçün əhalinin 90 faizinin peyvənd edilməsinə ehtiyac olacaq".**

Bu sözləri ABŞ Allergiya və Yoluxucu Xəstəliklər İnstitutunun direktoru Dr. Anthony Fauci deyib. ABŞ-ın aparıcı həkimlərindən olan Fauci bildirib ki, əvvəl sürü toxunulmazlığı üçün 70-75 % faiz insan peyvənd olunurdu. Ancaq xəstəlik nə qədər yoluxucudursa, peyvəndləmə nisbəti də bir o qədər yüksək olur. Əks halda müsbət nəticə verməyəcək. ABŞ Xəstəliklərə Nəzarət və Profilaktika Mərkəzindən verilən məlumata görə, ölkədə indiyədək 1 milyondan çox insana COVID-19 peyvəndinin ilk dozası vurulub. ABŞ-da təsdiqlənmiş "Pfizer" / "BioNTech" və "Moderna" peyvəndləri iki doza tətbiq edilir. Tramp administrasiyası 20 milyon amerikalıya ilin sonuna qədər peyvəndin ilk dozasını verməyi hədəfləyib. (publika.az)

Bildirək ki, ABŞ-da19 milyondan çox insan COVID-19-a yoluxub, 336 mini isə ölüb.

## "Hercai" serilına yeni aktyor daxil olub



**3 mövsümdür yayımlanan "Hercai" serialına yeni aktyor daxil olub.**

Ekran işində aktrisa Aysun Metiner çəkiləcək.

O, Ebru Şahinin Reyyan obrazını, Akın Akınözünün isə Miranı canlandırdığı serialda Miranın anası Dilşat obrazına həyat verəcək. Aysun Metiner bugünə qədər "Asmalı Konak", "Şölen", "Bir Litre Gözyaşı" və "Gençliğim Eyvah" kimi ekran əsərlərində çəkilib.

## Kino sektorunda 10 milyon insanın işsiz qalacaq




**BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatı - UNESCO koronovirus pandemiyasının sərt təsir etdiyi sənət dünyasının çətin vəziyyətdə olduğunu bildirib.**

Türkiyə mətbuatı xəbər verir ki, bu barədə UNESCO-nun baş direktoru Odri Azulay məsələ ilə bağlı bəyanat verərkən danışıb.

O, kino sektorunda 10 milyon insanın işsiz qalacağını, musiqi sahəsinə isə 10 milyard dollar ziyan dəyəcəyi haqda proqnoz verib.

Odri aylardır bağlı qalan muzey və incəsənət qalereyalarında işləyənlərin də bu təhlükə ilə üz-üzə olduğunu, çalışanların sayının yarı-yarıya azala biləcəyini qeyd edib. Baş direktor altı ay ərzində konsertlərin təşkil olunmamasının isə musiqi sektoruna 10 milyard dollar zərbə vuracağını bildirib.

## Aylar sonra ayrılma səbəbini açıqladı

### Keçmiş sevgililərlə bağlı yeni iddia ortaya atılıb



**Ötən ilin iyulunda müğənni Murad Dalkılıç və aktrisa Hande Erçelin ayrılması hər kəsi təəccübləndirmişdi. Hələ də ayrılıqları ilə gündəmdə olan keçmiş sevgililərlə bağlı yeni iddia ortaya atılıb.**

Verilişlərdən birinə qatılan Murad Hande ilə yaşadığı sevgi münasibəti haqqında maraqlı açıqlamalar verib.

"Sevgi bitərsə, münasibət də bitər. Çünki o eşq yaşadır münasibəti. Yaşadığım sevgi zamanı hər zaman qarşı tərəfi fikirləşirəm. Onun nə istədiyi mənim üçün daha vacibdir. Özümdən çox onun istəklərini nəzərə alıram" - deyə, Murad bildirib.

Murad bu sözləri ilə Hande ilə aralarındakı sevginin bitdiyi və buna görə münasibətə son qoyduqlarını vurğulayıb.

## "Nar+" tətbiqi ilə müştəri xidməti cibinizdə!




**Ölkədə tətbiq edilən sərt karantin rejimi müddətində "Nar" abunəçiləri evdən çıxmadan mobil hesablarını "Nar+" tətbiqi ilə müstəqil idarə edə bilərlər.**

Belə ki, tətbiq vasitəsilə abunəçilər izahlı qaiməni dərhal ve rahatlıqla əldə edə, balansını artıra və yoxlaya, hesabına nəzarət edə, ən uyğun tarifə qoşula, mövcud tarifi dəyişə, yeni internet paketi sifariş edə bilərlər. Tətbiq eyni anda vahid platforma üzərindən bir kliklə 5-dək hesabı idarə etməyə də imkan verir. Bundan başqa "Nar+" tətbiqinin onlayn çat xidməti müştəri xidməti funksiyasını yerinə yetirərək bütün sorğuları operativ şəkildə cavablandırır.

*Qeyd edək ki, "Nar+" tətbiqini AppStore və PlayStore-dan yükləmək mümkündür. Tətbiq haqqında daha ətraflı məlumatı https://www.nar.az/plus/ səhifəsindən əldə etmək olar.*

*"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda 8700-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.*

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**
**KURSLAR**
**-MÜHASİBAT** (2 AY)
**-Mobil telefonların təmiri** (3 ay)
**-KOMPYUTER** (1-3 AY)
**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)
**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)
**-Dizayn** (3-6ay)
**-Masaj** (3 ay)
**-Biçmə - Tikiş** (3 ay)
**-Psixologiya və Para psixologiya** (3-12 ay)
**Tel: (012) 566-88-96**
**(012) 489-08-84**
**Mob: (070) 241-28-67**
**www.az-baku.com**

Baş redaktor: **Akif Aşırlı**
Baş redaktorun ı müavini: **Yusif Nəzərli**
Redaktor: **Ayyət Əhməd**
**Reportyorlar qrupu:** Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov
**Texniki heyət:** Rüfət Dadaşov, İmamcan Əliyev
Qəzet "**Şərq**"in kompyuter mərkəzində yığılır, səhifələnir və "**Azərbaycan**" nəşriyyatında çap olunur
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
**www.sherg.az**
e-mail: **sherq-1996@mail.ru**
Ünvan: Mətbuat prospekti, "**Azərbaycan**" nəşriyyatı.
**Telefon:** 447-32-41 538-44-50, internet 538-44-15, İndeks: AZ1073
**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2924



## Milyonda bir hadisə yaşandı

### İki uşaqlıq orqanı olan qadın üçəm dünyaya gətirdi

**Böyük Britaniyada bədənində anadangəlmə iki uşaqlığı olan qadın üçəm dünyaya gətirib.**

Qadın əkizlərin ikisini bir, digərini isə ikinci bətnində daşıyıb. Həkimlərin sözlərinə görə, iki uşaqlığı olan bir qadının üçəmə hamilə olmaq və uşaqları dünyaya gətirə bilmək şansı milyonda bir olan hadisədir. /medicina.az

## Saatda 350 kilometr hərəkət edir

### Dünyanın ən sürətli yük qatarları xidmətə başlayıb



**Çində sürəti saatda 350 kilometrə çatan yük qatarları xidmətə başlayıb.**

"CRRC Tangshan" şirkətinin istehsalı olan bu qatarlar dünyada sürəti saatda 350 kilometrə çatan ilk yük qatarlarıdır. Qatarın lokomotivi dizayn formasına görə nərə balığına bənzəyir. Bu cür konstruksiya hərəkət müqavimətini əhəmiyyətli dərəcədə azaldır. Qatarlar 110 ton yüklə 1500 kilometr məsafəni 5 saata qət edə bilir. Onların yük məkanından faydalı istifadə əmsalı 85 faiz təşkil edir. Bu da daha çox yükün qısa zamanda ünvanlara çatdırılmasına imkan yaradır.

*Qeyd edək ki, Çin dünyada ən böyük sürətli dəmir yolu şəbəkəsinə malik ölkədir. Ölkədəki 146 min kilometr uzunluğundakı ümumi dəmir yolu xətlərinin 38 mini sürətli qatarların hərəkəti üçündür.*

## Oyunçaq körpə ilə dilənirdi

### Vətəndaşların duyğularını istismar edən qadın yaxalanb



**İstanbulun Üsküdar səmtində qucağında oyunçaq körpə ilə vətəndaşların duyğularını istismar edərək dilənçilik edən qadının hiyləsi ortaya çıxıb. Dilənçilik edən qadın polisə təslim edilib.**

Yol kənarında bir qadının qucağında ədyala sarılı bir körpə ilə oturduğu və dilənçilik etdiyi görünür. Hadisə yerinə gedən polis qrupları qadının qucağındakı qundağı açan zaman içərisində sadəcə oyunçaq körpə olduğunu aşkarlayıb. Qadın polis qruplar tərəfindən hadisə yerindən aparılıb. Dilənçilik edən qadının şəxsiyyət təsbit ediləcək və ona lazımi cəza kəsiləcək.

## Aktrisa maddi sıxıntılar yaşayır

### "Kirayə haqqını ödəmək üçün kredit götürdüm"



**Türkiyəli aktrisa Öykü Çelik maraqlı açıqlamaları ilə diqqət çəkib.**

Proqramlardan birinə qonaq olan aktrisa keçmişdə və hazırda yaşadığı maddi sıxıntılardan danışıb. "Ailəmizin maddi vəziyyəti elə də yaxşı deyildi. Təxminən orta təbəqə hesab edilirdik. Özəl universitetə qəbul oldum, amma ailəm ödənişi ödəyə bilmədi deyə oxumadım. Mən pulum olanda belə heç vaxt onu yığmadım. Hər zaman ətrafımdakı insanlarla paylaşdım. Gənc yaşda pul qazanmağa başladım. Ailəmdən istəmədim. Çünki bunu qüruruma sığışdırmadım. Həyatda ən çətin şey məşhur olmaq, ya da pul qazanmaq deyil. Ən çətin şey məşhur olub pulsuz olmaqdır. Çünki məşhur insanların varlı olduğunu düşünürlər. Amma mən kirayə haqqını ödəmək üçün kredit götürdüyümü xatırlayıram"- deyə, Öykü bildirib.



# 6 gün qaldı

## 100 milyonu kim qazanacaq?




**Yeni il çəkilişinə 6 gün qala, bilet almaq istəyənlər Eminönündəki məşhur bilet pəncərəsi qarşısında uzun bir növbə yaradıblar.**

Milli Lotereya tarixində ən yüksək hədiyyə olan 100 milyon TL-in sahibini tapacaq Milli Lotereya oynuna 6 gün qala həyəcan gedərək artır. Taleh quşunu axtaranlar xəyallarına ulaşmaq üçün bilet almağa tələsirlər. 25, 50, 100 lirədən satılan biletlərin qarşısında uzun bir növbə yaranıb. Metrlərlə uzanan növbə havadan da göstərilib. Polis qrupları isə gün boyu ictimai məsafə və maska xəbərdarlıqlarını təkrarlayıb. Biletlər, 31 dekabr saat 19.00-a qədər satışda olacaq. Adanadan İstanbula Milli Lotereya bileti almağa gələn Abidin Şenol yarım saatdan çox növbə gözlədiyini söyləyib: "Adana Çukurovadan bilet almağa gəldim. 3 ildir bu vaxtda buradayam". 1 saatdır növbədə gözləyən Məmməd Hakanın isə böyük hədiyyə üçün çox maraqlı bir xəyalı var. O, 100 milyon lirə qazanarsa xaricdə özünü dondurmaq istədiyini söyləyib: "Ümidliyəm, böyük hədiyyə mənə çıxarsa Avropada olur bu iş, Türkiyədə yoxdur, hələ qadağandır. Özümü donduracağam, sevdiyim insanları da donduracağam, elə şirkətlər var. Böyük miqdarda pul verirlər. 200 il sonra dünyaya gələcəyəm. 200 il sonrakı dünyanın halını görmək üçün".

### Hakan böyük hədiyyəni qazanarsa xaricdə özünü donduracaq

## Mutant virus yayılır

### Qarşıdakı 30 gün maksimum təcrid olunun!



**Mövcud pandemiyanın günahkarı koronavirus yeni təkamül üstünlükləri və daha yaxşı yaşamaq qabiliyyəti qazandığı zaman hər kəs üçün dəhşətli nəticələrə səbəb olacaq. Bu, mutant koronavirusun aşkarlandığı İngiltərədə də ola bilərdi.**

Həkim-immunoloq Vladislav Jemçuqov virusun şaxtalı havada yaşamağa öyrəşdiyini bildirib.

"İndi virus aşağı temperaturda yaxşı inkişaf edə bilmir, bəs zamanla mənfi dörd dərəcədə yaşamağı öyrənsə, necə olacaq? Hər kəs üçün dəhşətli olacaq. Virus üçün öldürücü olmaq sərfəli deyil, o zaman yaşamaq imkanlarını itirəcək. Əgər dünya əhalisinin 60-70 faizi immunitetə sahib olarsa, onda virus heyvanlarda qalacaq və immuniteti olmayan insanların növbəti nəslini gözləməli olacaq", - immunoloq verdiyi müsahibədə deyib.

Alimin fikrincə, virus çox tez mutasiya edir. Gedən bütün bu dəyişikliklər isə virusun daha sürətlə yayılmasını təmin edir. (medicina.az)

Həkim bildirib ki, koronavirus gələcəkdə ensefalit kimi təbii fokal və ya qrip kimi mövsümi xəstəliyə çevrilə bilər.

## Di Kaprio kökəlib tanınmaz hala düşdü



**Ötən gün Hollivud ulduzu Leonardo Di Kaprio kameralara tuş gəlib.**

Aktyor özündən 13 yaş kiçik sevgilisi Camila Morrone ilə birlikdə görüntülənib. 46 yaşlı Leonardo sevgilisi və iti ilə Los-Anceles küçələrində yürüyüşə çıxıb.

Di Kaprio həddən artıq çəkisi ilə marağa səbəb olub. Karantin səbəbi ilə evdə qalan aktyor xeyli kökəlib. Onun son halını görənlər çox təəccüblənib.

## Günel Bülənt Ərsoyla fotolarını yayımlayıb



**Müğənni Günel Zeynalova Türkiyənin divası Bülənt Ərsoyla fotolarını yayımlayıb.**

Şəkilləri İnstaqramında yayımlayan sənətçi bunları qeyd edib:

"Divamız, musiqi savadını, səsini və ən önəmlisi insanlığını sevirəm. Çox gözəl qəlbi var. Bülənt xanım, nə yaxşı varsınız. Sizin kimi güclü səsli böyüyümüz olduğu üçün çox şanslıyıq".